19 noyabr 2021 №86 (1863)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Ölkəmiz UNESCO-nun İcraiyyə Şurasına üzv seçilib

## Azərbaycan təşkilatda mühüm qərarlarla bağlı müzakirələrdə bilavasitə iştirak edəcək




Xəbər verdiyimiz kimi, 9–24 noyabr tarixində Parisdə UNESCO Baş Konfransının 41-ci sessiyası keçirilir. Baş Konfrans UNESCO-nun ali orqanıdır. UNESCO üzvü olan hər dövlət böyük-kiçikliyindən, beynəlxalq miqyasda imkanlarından asılı olmayaraq, bərabər şəkildə səs hüququna malikdir. İki ildən bir toplanan Baş Konfrans təşkilatın ümumi istiqamət və fəaliyyət xəttini müəyyənləşdirir, proqram və büdcəsini qəbul edir. Həmçinin UNESCO İcraiyyə Şurasının üzvlərini seçir və dörd ildən bir təşkilatın Baş direktorunu təyin edir.

Noyabrın 17-də sessiya çərçivəsində qurumun İcraiyyə Şurasına seçkilər keçirilib. Azərbaycan II seçki qrupundan (Şərqi Avropa ölkələri) növbəti dörd il müddətinə UNESCO-nun İcraiyyə Şurasına üzv seçilib.

İcraiyyə Şurası UNESCO-nun icra orqanıdır. Şura qurumun ali orqanı olan Baş Konfransın işini təşkil edir və onun qərarlarının icrasına nəzarəti həyata keçirir. Şuranın 58 üzvü var və onlar Baş Konfrans tərəfindən təmsil etdikləri mədəniyyətlərin müxtəlifliyi və mənsub olduqları coğrafi məkan əsasında seçilir.

Xatırladaq ki, Azərbaycan 2005-2009-cu illərdə UNESCO İcraiyyə Şurasının üzvü olub. Şurada təmsilçilik təşkilatda mühüm qərarlarla bağlı müzakirələrdə bilavasitə iştirak etmək imkanı verir.

Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının UNESCO İcraiyyə Şurasına üzv seçilməsi ilə bağlı məlumat yayıb.

Məlumatda bildirilib ki, UNESCO Baş Konfransının 41-ci sessiyası çərçivəsində təşkilatın İcraiyyə Şurasının 2021-2025-ci illər üzrə üzvlüyünə seçkilər keçirilib. Seçkilərdə Şərqi Avropa qrupu üçün ayrılmış üç vakant yerdən birinə Azərbaycan Respublikasının namizədliyi irəli sürülmüşdü. Gərgin rəqabət şəraitində keçən seçkilərdə Azərbaycan 143 səs toplayaraq Şuraya üzv seçilib.

"Ölkəmizin namizədliyinin çoxlu sayda dövlət tərəfindən dəstəklənməsi Azərbaycan Respublikasının elm, təhsil və mədəniyyət sahələrinə ayırdığı yüksək diqqətin və mədəni irsin mühafizəsinə nümayiş etdirdiyi diqqətin qlobal miqyasda qiymətləndirilməsinin göstəricisidir.

UNESCO İcraiyyə Şurasına üzvlüyü dövründə Azərbaycan Respublikası xüsusilə inkişaf etməkdə olan ölkələrdə UNESCO-nun mandatının effektiv şəkildə həyata keçirilməsinə öz dəyərli töhfəsini verəcək.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi fürsətdən istifadə edərək Azərbaycan Respublikasının namizədliyinə öz dəyərli dəstəyini göstərmiş bütün UNESCO üzv dövlətlərinə minnətdarlığını bildirir", – deyə məlumatda qeyd olunub.

davamı səh. 2-də

# Övladlarımızın milli dəyərlərə sadiq şəxsiyyət kimi formalaşması müstəsna önəm daşıyır

Uşaqlar cəmiyyətin sabahıdır. Övladlarımızın milli dəyərlərə sadiq və yüksək mənəviyyatlı şəxsiyyət olaraq formalaşmalarının ölkəmizin tərəqqisi baxımından müstəsna əhəmiyyəti var. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycan dövlətinin ardıcıl həyata keçirdiyi sosialyönümlü siyasət də bu məqsədə xidmət edir.

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Uşaqların V Ümumrespublika Forumunun iştirakçılarına müraciətində yer alıb.

səh. 2

# Mədəniyyət Nazirliyində dünya şöhrətli musiqiçi ilə görüş

Əslən Bakıdan olan tanınmış violin ifaçısı, dirijor Dmitri Sitkovetski Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə yubiley tədbirlərinə dəvət alaraq, doğulduğu şəhərə gəlib.

Noyabrın 17-də mədəniyyət naziri Anar Kərimov Dmitri Sitkovetski ilə görüşüb. Söhbət zamanı ölkəmizdə klassik musiqi ənənəsini dirçəltməyin, məşhur ifaçıların iştirakı ilə müxtəlif festivalların keçirilməsinin əhəmiyyətindən danışılıb.

səh. 3

# Vətən üçün canından keçən qəhrəmanlarımız son mənzilə yola salınıb

2020-ci ilin 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu tərəfindən Qarabağda ağır məğlubiyyətə uğradılan Ermənistan silahlı qüvvələri bir il sonra dövlət sərhədimizdə yeni təxribatlara başlayıb.

Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, noyabrın 16-da düşmənin Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları istiqamətində təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun 7 hərbi qulluqçusu şəhid olub, 10 hərbçimiz yaralanıb.

Şəhid qəhrəmanlarımız doğulduqları bölgələrdə böyük izdihamla son mənzilə yola salınıblar.

davamı səh. 4-də

# Nizaminin 880 illiyi münasibətilə fləşmob

"Nizami ili" münasibətilə noyabrın 15-də başlayan Nizami Gəncəvi Beynəlxalq Festivalı maraqlı təqdimatlarla davam edir.



Festival çərçivəsində şairin yurdunda daha bir maraqlı layihə gerçəkləşib. Noyabrın 18-də Gəncə şəhərinin Heydər Əliyev meydanında fləşmob təşkil olunub. Gəncə Regional Mədəniyyət İdarəsi, Gəncə Şəhər İcra Hakimiyyəti, şəhər Təhsil İdarəsinin dəstəyi, Gəncə Şəhər İctimai İştirakçılıq Məclisinin təşəbbüsü ilə hazırlanan fləşmobdan əvvəl ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

8800 nəfərin iştirakı ilə baş tutan layihədə Gəncə Maarif İctimai Birliyinin könüllüləri, şəhərin ali təhsil müəssisələrinin tələbələri, orta məktəb şagirdləri dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin portretini və 880 rəqəmini canlı olaraq yaradıblar.

Xoreoqrafı Mobil Qarayev olan fləşmob şəhər sakinləri tərəfindən maraqla qarşılanıb.

# Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu

Noyabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, "Regional İnkişaf" İctimai Birliyinin və BMT-nin Uşaq Fondunun (UNİCEF) birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu keçirilib.

Forumda Azərbaycanın bütün şəhər və rayonlarından fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, həmçinin Dövlət Komitəsi tərəfindən təşkil olunan yay məktəbinin iştirakçısı olmuş, liderlik keyfiyyətlərinə məxsus 350-yə yaxın uşaq iştirak edib.




Forum öncəsi, noyabrın 17-də iştirakçılar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, Şəhidlər xiyabanında torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsini yad ediblər.

Tədbir Dövlət himninin səslənməsi ilə başlayıb. Sonra Azərbaycanda dövlət uşaq siyasətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun iştirakçılarına müraciətini oxuyub.

davamı səh. 2-də

# Caz, azadlıq və müstəqillik

Vaşinqtonda ADA Universitetinin ABŞ-dakı Mərkəzinin və Azərbaycan-Amerika Musiqi Fondunun birgə təşkilatçılığı ilə "Vilyam Konnover, Vaqif Mustafazadə, Frederik Star. Caz, azadlıq və müstəqillik" mövzusunda tədbir təşkil olunub.



Tədbir çərçivəsində ADA-nın ABŞ-dakı Mərkəzində "Vilyam Konnover və Vaqif Mustafazadə de caz saatı" mövzusunda foto-sərginin açılışı olub. Sonra tarixi "Whittemore House"da ziyafət və konfrans keçirilib. Burada ADA Universitetinin əməkdaşlıq etdiyi universitetlərin dekanları, professor və müəllimləri, dövlət və ictimai xadimlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ADA Universitetinin ABŞ-dakı Mərkəzinin prezidenti Qalib Məmməd Azərbaycanda cazın tarixindən bəhs edib, caz musiqisinin xalqlar arasında körpü qurduğunu nəzərə çatdırıb. O, cazın Azərbaycandakı tolerant fikir tərzinin simvollarından biri olduğunu vurğulayıb.

davamı səh. 3-də



# "Yeddi gözəl"in səhnəsi

Nizami Gəncəvi Beynəlxalq Festivalı çərçivəsində növbəti nümayiş noyabrın 16-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında baş tutdu. Dahi şairin "Yeddi gözəl" poeması əsasında böyük bəstəkar Qara Qarayevin yazdığı eyniadlı balet nümayiş olundu.

səh. 5

# "Azərbaycan aşıq sənəti" adlı bədii sərgi açılacaq

Noyabrın 24-də Bakı Xətai Sənət Mərkəzində Xalq rəssamı Arif Hüseynovun aşıq sənətinin görkəmli nümayəndəsi, böyük söz ustadı Aşıq Ələsgərin 200 illiyinə həsr edilmiş "Azərbaycan aşıq sənəti" adlı bədii sərgisi açılacaq.

Sərgi Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşacaq.




# Mədəni müxtəlifliyin dünya iqtisadiyyatına faydası

Müasir günümüzdə yaradıcılıq eyni zamanda iqtisadi qüvvədir. Bu gün mədəni və yaradıcı sənayelər böyük iqtisadi faydalar gətirir, bəzi ölkələrdə ÜDM-in önəmli hissəsini təşkil edir. UNESCO mədəni müxtəlifliyi təbliğ etmək üçün hökumətlərə dəstək göstərir.

UNESCO-nun 2004-cü ildə təsis olunan Yaradıcı Şəhərlər Şəbəkəsi də yaradıcılığı və mədəni sənayeləri yerli səviyyədə dəstəkləmək və təşviq etmək məqsədi daşıyır. Şəbəkə hazırda 90 ölkənin 295 şəhərini yeddi tematika (media-art, musiqi, kinematoqrafiya, qastronomiya, dizayn, folklor, əl işləri və xalq sənəti) üzrə bir araya gətirir.

davamı səh. 8-də

"Azərbaycanfilm"in əməkdaşları Polşada festivalda



səh. 2

Üç şəhərimiz mədəniyyət və yaradıcı sektoru dəstəkləmək üçün "EU4Culture" layihəsində qrant qazanıb

səh. 4




12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalı başlayır

səh. 7

№86 (1863)
19 noyabr 2021
www.medeniyyet.az

# Övladlarımızın milli dəyərlərə sadiq şəxsiyyət kimi formalaşması müstəsna önəm daşıyır

Uşaqlar cəmiyyətin sabahıdır. Övladlarımızın milli dəyərlərə sadiq və yüksək mənəviyyatlı şəxsiyyət olaraq formalaşmalarının ölkəmizin tərəqqisi baxımından müstəsna əhəmiyyəti var. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycan dövlətinin ardıcıl həyata keçirdiyi sosialyönümlü siyasət də bu məqsədə xidmət edir.

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Uşaqların V Ümumrespublika Forumunun iştirakçılarına müraciətində yer alıb.

Müraciətdə deyilir: "Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz.

Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan Ordusu yalnız tarixi ədaləti deyil, həm də bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın 30 ildən artıq müddətdə pozulan hüquq və azadlıqlarını bərpa etdi, düşmən təxribatlarına qurban getmiş məsum övladlarımızın qisasını alaraq öz möhtəşəm gücünü və hərbi qüdrətini bütün dünyaya çatdırdı".

Bu gün Azərbaycanın sürətli inkişaf yolunda olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, yurdumuzun ildən-ilə daha güclü, daha qüvvətli olması, eyni zamanda uşaqların xoşbəxt və firavan yaşamasının rəhnidir.

"İndiki nəsil qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəkdir. Odur ki, üzərinizə düşən məsuliyyəti daha dərindən dərk edərək, daim əzmlə çalışmalı, Vətəni layiqincə təmsil etməlisiniz. İnanıram ki, siz mənən zəngin nəsil kimi azərbaycançılıq ruhunda böyüyərək boya-başa çatacaq, respublikamızın gələcək inkişafı və uğurlar qazanması naminə töhfələrini əsirgəməyəcəksiniz", – deyə müraciətdə bildirilir.

# Birinci vitse-prezident həlak olmuş hərbçilərimizin doğmalarına başsağlığı verib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstagram" səhifəsində Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş hərbçilərimizlə bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş əsgər və zabitlərimizin doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə səbir versin. Yaralıların tezliklə sağalmasını diləyirəm. Uca Tanrı Vətənimizi qorusun!".

# Milli Kitabxananın direktoru 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunub

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyevin noyabrın 17-də imzaladığı sərəncama əsasən, Kərim Məhəmməd oğlu Tahirov Azərbaycanda kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə ordenə layiq görülüb.

Qeyd edək ki, noyabrın 12-də Əməkdar mədəniyyət işçisi, kitabxanaşünas alim, professor Kərim Tahirovun 70 yaşı tamam olub.

Professor Kərim Tahirovu yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

# Bursa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinə hazırlaşır

Türkiyənin Bursa şəhərinin TÜRKSOY tərəfindən 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi münasibətilə şəhərdə mətbuat konfransı keçirilib.




Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş göstərilən diqqətə görə TÜRKSOY-a minnətdarlığını ifadə edib və 2022-ci ildə keçiriləcək tədbirlərdən danışıb.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov çıxışında bildirib ki, Bursa Avropanın mədəniyyət paytaxtlarında da tanıdılacaq.

Azərbaycan Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli qeyd edib ki, Türkiyə 2022-ci ildə keçiriləcək 8-ci Bakı Beynəlxalq Kitab Sərgisinə "fəxri qonaq" statusunda qatılacaq. Şöbə müdiri Bursa Böyükşəhər Bələdiyyəsini də sərgiyə dəvət edib. O, bələdiyyə sədri Alinur Aktaşa Qarabağ Zəfərinin simvolu olan "Xarıbülbül" nişanını və "Gəncə – Nizami yurdu" kitabını hədiyyə edib.

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı bildirib ki, təşkilat Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə və Yunus Əmrənin ölümünün 700 illiyinə həsr olunmuş konsert proqramları keçirir. Noyabrın 18-də Bursada Türk dünyası sənətçilərinin iştirakı ilə təşkil edilən konsert və sərgi də bu tədbirlərin davamıdır.

# Filosoflar ölkəsində Nizami ilə bağlı tədbir

Yunanıstanın Epirus regionunun inzibati mərkəzi – Yanina şəhərində Azərbaycanın bu ölkədəki səfirliyinin təşəbbüsü və şəhər meriyasının təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş tədbir keçirilib. Yanina şəhərinin meri Moses Elisaf tədbirdə iştirak edib.

Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov şairin həyat və yaradıcılığı, "İskəndərnamə" poemasında bəhs olunan mühüm məqamlar barədə məlumat verib. Tədbirə onlayn qoşulan Yaxın Şərq və İslam araşdırmaları üzrə ekspert Evangelis Venetis dahi şair barədə ətraflı məlumat verib, Nizaminin orijinaldan oxuduğunu bildirib. O, Şərqin ən görkəmli filosoflarından biri kimi Nizami Gəncəvinin əsərlərinin xüsusiyyətləri, həmçinin yaradıcılığında Qərb fəlsəfəsi, o cümlədən Sokrat, Aristotel və digər filosoflardan təsirləndiyi barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Tədbir çərçivəsində şairin əsərlərinə çəkilən miniatürlərdən ibarət guşə də yaradılıb. İştirakçılar tərəfindən Nizaminin müxtəlif əsərlərində yer almış miniatürlərə böyük maraq göstərilib.

# UNESCO-nun Mədəniyyət Komissiyasına Azərbaycan sədrlik edir

## İclasda ölkəmizdə yaradıcı sənayelər sahəsində görülən işlərdən də danışılıb

17-19 noyabr tarixində Parisdə UNESCO Baş Konfransının 41-ci sessiyası çərçivəsində qurumun Mədəniyyət Komissiyasının ilk iclası keçirilir. UNESCO-nun üzv ölkələrinin və müşahidəçi statusunda olan təşkilatların təmsil olunduğu Mədəniyyət Komissiyasının iclasına Azərbaycan sədrlik edir. Panama, İndoneziya və Lesotonun nümayəndələri sədr müavinləri seçiliblər.

Noyabrın 17-də başlanan iclasa Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə sədrlik edib.




Komissiyanın gündəliyinə 2022-2025-ci illər üçün büdcə layihəsi, mədəniyyət sahəsində proqramlar, 2022-2029-cu illər üçün Prioritet Afrika Əməliyyat Strategiyasının layihəsi, mədəniyyətlə bağlı konvensiyaların icra vəziyyəti, 40-cı Baş Konfransda qəbul edilmiş 43 və 67 saylı qətnamələrin icra vəziyyəti, qanunsuz olaraq ölkədən çıxarılmış mədəni mülkiyyətin geri qaytarılması ilə bağlı Hökumətlərarası Komitənin 2020-2021-ci illərdə fəaliyyəti ilə bağlı hesabat, Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitənin fəaliyyət hesabatı, Mədəniyyətin təbliği üzrə Beynəlxalq Fondun 2020-2021-ci illər üzrə hesabatı, həmçinin Dünya İrs Komitəsinin 2020-2021-ci illər üzrə hesabatı ilə bağlı müzakirələr daxildir.

İclasın sədri Vasif Eyvazzadə gündəlikdə duran məsələləri diqqətə çatdıraraq, 40-cı Baş Konfransın Yerusəlim ilə bağlı 43 saylı qətnaməsi və işğal olunmuş ərəb ərazilərində təhsil və mədəniyyət müəssisələrinin vəziyyətinə dair 67 saylı qətnamənin icra vəziyyətinə dair konsensusla qəbul edilmiş sənədləri UNESCO Baş direktorunun kabinet rəhbəri Nikolas Kasianidesə təqdim edib.

İclasda UNESCO Baş direktorunun müavini Ernesto Ottone 2022-2025-ci illər üçün qurumun proqram və büdcə layihəsini təqdim edib. UNESCO-nun növbəti il üçün mədəniyyət sahəsi üzrə əsas proqramının təqdimatından sonra 50 üzv ölkənin nümayəndələri çıxış edərək, Azərbaycan nümayəndəsinin sədr seçilməsi münasibətilə təbrik ediblər.

Üzv ölkələrin əksəriyyəti UNESCO Proqramında yaradıcı sənayelərin inkişaf etdirilməsinə daha ciddi önəm verilməsini alqışlayıblar.

Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyinin II katibi Nahid Ömərov ölkəmiz üçün mədəni irsin qorunması, mədəni mülkiyyətin qanunsuz dövriyyəsi və yaradıcı sənayelərin inkişaf etdirilməsi mövzularının ciddi əhəmiyyət kəsb etdiyini bildirib. O, ölkəmizdə yaradıcı sənayelər sahəsində görülən işlərdən söz açaraq, Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının təsis edildiyini və bu kontekstdə hazırkı proqram və büdcə sənədini dəstəklədiyimizi diqqətə çatdırıb.

# Nizami Gəncəvi Beynəlxalq Festivalı şairin yurdunda davam edir

Dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə 15 noyabrda başlayan Nizami Gəncəvi Beynəlxalq Festivalı Bakı və Gəncə şəhərlərində müxtəlif tədbirlər və proqramlarla davam edir.



Noyabrın 16-da festival çərçivəsində Nizami yurdunda daha bir musiqi gecəsi Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında gerçəkləşib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Türkiyə Cümhuriyyətinin Gəncədəki baş konsulu Zeki Öztürk, idarə və müəssisələrin rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə filarmoniyanın qarşısında Gəncə Dövlət Dram Teatrı aktyorlarının ifasında Nizami Gəncəvi poemalarının motivləri əsasında "Xəmsə" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sonra Gəncə Dövlət Filarmoniyasının "Xəmsə" estrada ansamblı konsert proqramı ilə çıxış edib.

Konsertdən sonra mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk çıxış edərək festivalın əhəmiyyətini vurğulayıb, incəsənət ustalarına təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, 15-26 noyabr tarixini əhatə edən Nizami Gəncəvi Beynəlxalq Festivalı Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Şəhər İcra Hakimiyyəti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilir.

# Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu

əvvəli səh. 1-də

İştirakçıları salamlayan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, forum xalqımız üçün çox möhtəşəm hadisənin bayram edildiyi günlərə – Vətən müharibəsində qazanılan Zəfərin birilliyi ilə eyni vaxta təsadüf edir.

Bahar Muradova Prezident İlham Əliyevə məktubuna görə uşaqlar və öz adından təşəkkürünü bildirib. Qeyd edib ki, foruma hazırlıq mərhələsində müxtəlif maarifləndirici tədbirlər keçirilib. Uşaqların dövlət rəsmiləri və digər tanınmışlarla görüşləri təşkil olunub. Forum uşaq hüquqlarının qorunması, təbliği, qanunvericiliyin təkmilləşdirilməsi, dövlət proqramları və fəaliyyət planlarının hazırlanmasında uşaqların fikirlərinin nəzərə alınması baxımından vacib platformaya çevrilib.

Regional İnkişaf İctimai Birliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva çıxış edərək uşaq hüquqlarından danışıb. O, "2020-2030-cu illər üzrə Uşaq Strategiyası"nın vacibliyini vurğulayıb.

UNİCEF-in Azərbaycan nümayəndəliyi rəhbərinin müavini Min Yuan pandemiyanın təsirindən söz açıb: "Pandemiya təhsil, təlim, asudə vaxtınızı mənalı keçirmə imkanlarınıza müdaxilə edib. Bəzilərinin bəlkə də onlayn dərslərə çıxışı olmayıb. Bəzi uşaqlar bu dövrdə özlərini tənha, çətin vəziyyətdə hiss edib. Pandemiya uşaqların sağlamlığına çətinliklər yaradıb. Amma bu sahədə Azərbaycan hökuməti tərəfindən görülən tədbirləri yüksək qiymətləndiririk. Uşaqlar arasında bu qədər enerjini, gücü görmək xoş təəssürat bağışlayır".




Forumda Türkiyə ilə telekörpü yaradılıb. Forum 7 qrupdan ibarət müxtəlif mövzularda müzakirələr şəklində davam edib.

Koronavirus pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilən karantin rejiminin qaydaları və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla hibrid formatda təşkil olunan foruma iştirakçıların bir qismi onlayn şəkildə qoşulub.

# Azərbaycan UNESCO-nun İcraiyyə Şurasına üzv seçilib

əvvəli səh. 1-də

Qeyd edək ki, UNESCO İcraiyyə Şurasına seçkilər Baş Konfransın sessiyalarında, yeni iki ildən bir müvafiq vakant yerlər üzrə keçirilir. Bu dəfə ümumilikdə yeddi seçki qrupu üzrə 27 vakant yerə (2021-ci ildə üzvlük müddəti başa çatan ölkələr) seçkilər keçirilib.

Şərqi Avropa qrupundan Azərbaycanla yanaşı, Litva və Ermənistan Şuraya üzv seçilib.

Qərbi Avropa və Şimali Amerika ölkələri üzrə I seçki qrupundan 3 vakant yerə Türkiyə, İslandiya, Avstriya seçilib.

Bundan savayı, Latın Amerikası və Karib ölkələrini əhatə edən III qrup, Asiya və Sakit okean ölkələri üzrə IV qrup və Afrikanı əhatə edən V (a) qrupun hər birindən 6 üzv, habelə ərəb dövlətləri üzrə V (b) qrupundan 3 vakant yerə üzvlər seçilib.

UNESCO İcraiyyə Şurasına növbəti seçkilər 2023-cü ildə keçiriləcək.

Yeri gəlmişkən, noyabrın 16-da dünyanın təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsində əməkdaşlıq üzrə ən böyük qurumu olan UNESCO-nun 75 yaşı tamam olub. Təşkilatın Nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanıb, 4 noyabr 1946-cı ildə UNESCO rəsmən fəaliyyətə başlayıb.

UNESCO-nun sıralarında 193 ölkə və 11 assosiativ üzv var. Təşkilatın müxtəlif sahə və istiqamətlər üzrə altqurumları var. Azərbaycan hazırda üzv olduğu altqurumlar: Hökumətlərarası Bioetika Komitəsi (2017-2021-ci illər üzrə); Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitə (2018-2022); Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanın Hökumətlərarası Komitəsi (2019-2023); Bədən tərbiyəsi və idman üzrə Hökumətlərarası Komitə (2019-2023); Kommunikasiyanın inkişafı üzrə Beynəlxalq proqramın Hökumətlərarası Şurası (2019-2023).

# "Azərbaycanfilm"in əməkdaşları "EnergaCAMERİMAGE" festivalında

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyası tərəfindən istehsal olunmuş "Sonuncu" sənədli filmi 29-cu "EnergaCAMERİMAGE" Beynəlxalq Film Festivalının qısametrajlı sənədli filmlər üzrə müsabiqə bölməsində iştirak edir. Festival 13-20 noyabr tarixində Polşanın Torun şəhərində keçirilir.



Filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, rejissoru Fariz Əhmədov, ssenari müəllifləri Esmira Əyyub və Fariz Əhmədovdur. Filmin operatoru Polşadan dəvət olunmuş Mateuş Çuxnovskidir.

Festivala filmin yaradıcı heyətindən rejissor, "Azərbaycanfilm" Kinostudiyasının direktoru Fariz Əhmədov, təsvir rejissoru Mateuş Çuxnovski və "focus puller" (operator assistenti), "Azərbaycanfilm"in texniki direktoru Rəşad Səməd qatılıb.

Qeyd edək ki, "EnergaCAMERİMAGE" festivalı qısametrajlı sənədli filmlər kateqoriyasında Amerika Kino Sənəti və Elmləri Akademiyası tərəfindən "Academy award" ("Oskar") təsnifatı ilə qeydə alınıb. Bu o deməkdir ki, "EnergaCAMERİMAGE"da müvafiq bölmədə qaliblər ("Qızıl qurbağa" mükafatçıları) müvafiq qaydalara uyğun olması şərtilə "Oskar" mükafatları üçün də nəzərdən keçiriləcək.

Festival çərçivəsində kino avadanlıqları sərgisi də keçirilib. "ARRİ", "Leica-Leitz", "ZEİSS", "Cooke", "Sony", "Canon", "Hawk-Anamorphic Lenses" və digər film texnikası istehsalçılarının ən son yenilikləri olan kamera, işıq, lens məhsulları sərgidə təqdim olunub. Bu şirkətlərdən bir çoxu ilə əməkdaşlıq məqsədilə danışıqlar aparılıb.

# Bakıya hər səfərim xoş təəssüratla yaddaşıma həkk olunur

## Nazir Anar Kərimov dünya şöhrətli musiqiçini qəbul edib

Əslən Bakıdan olan tanınmış violin ifaçısı, dirijor Dmitri Sitkovetski Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə yubiley tədbirlərinə dəvət alaraq, doğulduğu şəhərə gəlib.



Noyabrın 17-də mədəniyyət naziri Anar Kərimov Dmitri Sitkovetski ilə görüşüb. Görüşdə həmçinin Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli və Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova da iştirak ediblər.

Məşhur musiqiçini səmimi salamlayan Anar Kərimov onu Bakıda görməyindən məmnunluğunu ifadə edib. Nazir sənətkarın yaradıcılığını izlədiyini vurğulayıb.

Dəvət üçün təşəkkürünü ifadə edən D.Sitkovetski Bakıya hər səfərinin xoş təəssüratla yaddaşına həkk olunduğunu, ölkəmizdə hər dəfə yenilikləri, inkişafı müşahidə etdiyini deyib. Əslən bakılı musiqiçilər – dünya şöhrətli pianoçu Bella Davidoviçin və violin ifaçısı Yulian Sitkovetskinin ailəsində dünyaya gələn sənətkar qəlbən özünü hər zaman bakılı hesab etdiyini bildirib.

Dmitri Sitkovetski söhbət zamanı ölkəmizdə klassik musiqi ənənəsini dirçəltməyin, məşhur ifaçıların iştirakı ilə müxtəlif festivalların keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, rəngarəng mədəniyyətlərin, o cümlədən əsrarəngiz musiqi mədəniyyətinin cəmləşdiyi Azərbaycan tarixən sənətsevərlərin diqqət mərkəzində olub. O, bundan sonra da sözügedən ənənələri yaşatmaq, sənətkar kimi üzərinə düşəni qürurla yerinə yetirmək üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Qeyd edək ki, Dmitri Sitkovetskinin səfər proqramına Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində ustad dərsi və konsert proqramı ilə çıxışı daxildir.

# Nizami festivalına Gənclər Kamera Orkestrinin töhfəsi



Noyabrın 15-də başlanan Nizami Gəncəvi Beynəlxalq Festivalı Bakıda və qüdrətli söz ustadının yurdu Gəncədə müxtəlif tədbirlərlə davam edir.

Festival çərçivəsində noyabrın 17-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Gənclər Kamera Orkestrinin (Baku Chamber Orchestra) konserti keçirildi.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Səhnəyə çıxan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Minəxanım Babayeva qonaqları salamladı. Bildirdi ki, Azərbaycan ədəbiyyatını müdrik fikirləri ilə zənginləşdirən, əsərləri ilə Şərq mədəniyyətinə böyük töhfələr verən Nizami Gəncəvi bəşəriyyətin bədii fikrinin formalaşmasında xüsusi yer tutan mütəfəkkirlərdəndir: "Nizami yaradıcılığının məna dərinliyi, obrazlarının əyaniliyi, yüksək mədəni keyfiyyətləri daim görkəmli bəstəkarlarımızın diqqətini cəlb edib. Bu gün Gənclər Kamera Orkestrinin ifasında səslənəcək əsərlər bizləri yenidən Nizami dünyasına aparacaq".

Sonra söz musiqiyə verildi. Proqramda ilk olaraq orkestrin ifasında (dirijor – Əməkdar artist Fuad İbrahimov) Ü.Hacıbəylinin "Arazbarı" əsəri səsləndirildi.

Opera müğənnisi, Vətən müharibəsi iştirakçısı, Prezident mükafatçısı Ataş Qarayevin ifasında Üzeyir bəyin "Sevgili canan" əsəri böyük maraqla qarşılandı. Orkestr tərəfindən Ü.Hacıbəylinin "Sənsiz" (solist – beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə) və Fikrət Əmirovun "Nizami" simfoniyası (bədii qiraət – Xalq artisti Zəhra Quliyeva) gecəyə əlavə rəng qatdı.

Konsert proqramına Qara Qarayevin "Yeddi gözəl" baletindən valsla yekun vuruldu.

Qeyd edək ki, konserti dinləyənlər arasında Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, incəsənət xadimləri, digər qonaqlar var idi.

Xatırladaq ki, Gənclər Kamera Orkestri Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində 2011-ci ildə yaradılıb. Orkestrin bədii rəhbəri BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, dirijoru Əməkdar artist Fuad İbrahimovdur.

**NURƏDDİN**

*əvvəli səh. 1-də*

# Caz, azadlıq və müstəqillik

## Vaşinqtonda keçirilən tədbirdə Vaqif Mustafazadə yad edilib

Tədbirdə Vaqif Mustafazadənin yaradıcılığına nəzər salınıb, "Amerikanın səsi" radiosunda caz verilişlərinin aparıcısı Vilyam Konnoverin onun barəsində təşkil etdiyi verilişlərdən fikirlər səsləndirilib.





Sonra ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Azərbaycanın müstəqillik illərində keçdiyi yoldan və qazandığı nailiyyətlərdən bəhs edib.

Rektor Hafiz Paşayev Azərbaycanın müstəqilliyinin dəstəkçisi, Vaşinqtondakı Cons Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun rəhbəri Frederik Starın Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edildiyini diqqətə çatdıraraq ordeni ona təqdim edib.

Azərbaycanla ABŞ arasında çoxşaxəli əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə ordenlə təltif edilən Frederik Star Prezident İlham Əliyeva minnətdarlığını bildirib, ölkəmizin bölgədəki geostrateji əhəmiyyətindən danışıb.

Tədbirdə eyni zamanda Ağ Evin Milli Təhlükəsizlik Şurasının Avropa və Avrasiya üzrə sabiq direktoru Deyvid Merkel, Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim, Şimali Texas Universitetinin tədqiqatçısı Maristella Fyustl və Azərbaycan-Amerika Musiqi Fondunun icraçı direktoru Cəmilə Spitzberq çıxış ediblər.

Tədbir məşhur azərbaycanlı caz pianoçusu və bəstəkar Əminə Fiqarovanın rəhbərlik etdiyi caz qrupunun ifasında konsertlə başa çatıb. Konsertdə ölməz sənətkar Vaqif Mustafazadənin və Qərb caz əfsanələrinin musiqi kompozisiyaları səsləndirilib.

Qeyd edək ki, "Vliyam Konnover və Vaqif Mustafazadə caz saatı" sərgisi gələn il fevralın 28-dək davam edəcək.

# Türkiyənin UNESCO-ya bağışladığı "Cənnət bağı"

## İznik keramika lövhəsinin açılış mərasimi olub

Parisdə – UNESCO-nun mənzil-qərargahında qurumun Baş Konfransının 41-ci sessiyası çərçivəsində Türkiyənin UNESCO kolleksiyasına bağışladığı "Cənnət bağı" adlı klassik naxışlı İznik keramika lövhəsinin açılış mərasimi olub.



Mərasimdə Türkiyə xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran, Türkiyənin Fransadakı səfiri Refik Ali Onaner, UNESCO yanında daimi nümayəndəsi, səfir Altay Cengizer, Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə, qurumda akkreditə olunmuş səfir və daimi nümayəndələr iştirak ediblər.

Yavuz Səlim Kıran çıxış edərək, Türkiyənin növbəti dəfə UNESCO İcraiyyə Şurasına üzv seçilməsinə dəstək verən ölkələrə təşəkkürünü bildirib.

O, UNESCO-nun 75 illiyini təbrik edərək, ölkəsinin qurumun fəal üzvü olduğuna görə qürur duyduqlarını bildirib. İrqçiliyin, islamofobiyanın intişar tapdığı çağdaş dünyada UNESCO-nun sülh və birgəyaşam mesajlarının yayılmasında ölkəsinin əməkdaşlıq edəcəyini vurğulayan nazir müavini Türkiyənin İcraiyyə Şurası, eləcə də Baş Konfransa sədrliyi çərçivəsində quruma verdiyi töhfələrdən söz açıb.

Türkiyə XİN başçısının müavini UNESCO-ya hədiyyə edilən sənət əsəri haqqında məlumat verərək İznik şəhərinin XII əsrdən bəri çini (keramika) sənətinin mərkəzi kimi tanındığını diqqətə çatdırıb. Bildirib ki, İznik çini sənəti Türkiyənin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısında yer alan 20 nümunəsindən biridir. Türkiyəyə gələn milyonlarla qonaq məscid və sarayların divarlarında bu sənətə heyran qalırlar.

"Nəfis əl işi olan İznik çini lövhəsinin UNESCO-ya hədiyyə edilməsi işbirliyimizin önəmli işarəti kimi görürük", – deyə Yavuz Səlim Kıran bildirib.

Sonra Türkiyənin UNESCO kolleksiyasına bağışladığı "Cənnət bağı" adlı klassik naxışlı İznik keramika lövhəsinin açılışını bildirən rəmzi lent kəsilib.

Xatırladaq ki, noyabrın 17-də Baş Konfransın 41-ci sessiyası çərçivəsində keçirilən səsvermədə Azərbaycan bərabər Türkiyə də 2021-2025-ci illər üzrə UNESCO İcraiyyə Şurasına üzv seçilib. 2017-ci ildən İcraiyyə Şurasında təmsil olunan Türkiyə növbəti dörd il müddətində də UNESCO-nun ali icra qurumunda yer alacaq.

# Pakistan Azərbaycanla mədəni əməkdaşlığı genişləndirmək istəyir

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov bu ölkənin federal təhsil və peşəkar təlim, eyni zamanda milli tarix və ədəbi irs üzrə federal naziri Şafqat Mahmud ilə görüşüb.

Səfir ölkələrimiz arasındakı səmimi münasibətlərdən söhbət açıb, elm, təhsil və mədəniyyət sahəsində əlaqələr barədə danışıb. Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində qazandığı Zəfərdən bəhs edən diplomat bu dövrdə rəsmi İslamabadın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə Pakistan hökumətinə və xalqına təşəkkür edib.



Şafqat Mahmud səfirə fəaliyyətində uğurlar arzulayıb. Nazir Azərbaycan torpaqlarının erməni işğalından azad olunması münasibətilə təbriklərini ifadə edib, Pakistanın ölkəmizin haqlı mövqeyini hər zaman dəstəklədiyini bildirib. İki ölkə arasındakı yüksəksəviyyəli münasibətlərə toxunan Ş.Mahmud elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin daha da gücləndirilməsi istiqamətində işlərin aparılacağını əminliklə vurğulayıb.



Qeyd edək ki, Pakistan-Azərbaycan mədəni əməkdaşlığı kontekstində daha bir tədbir bu günlərdə Lahor şəhərində təşkil edilib. Burada Pakistan Gənclərinin Müdafiə Şəbəkəsi (PGMŞ) və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Həm auditoriya, həm də onlayn formatda keçirilən tədbirin açılışında Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov, Pakistanın Azərbaycandakı səfiri Bilal Haye iştirakçıları salamlayıblar. Bu tipli tədbirlərin iki ölkə arasında mədəni əlaqələrin inkişaf etməsində rolu vurğulanıb.

Plenar müzakirələrdə Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli, Pakistan Təhsil Universitetinin müəllimi Cabir Hüseyn, Pakistan-Azərbaycan Məzunları Assosiasiyasının sədri Qaisar Nəvab, PGMŞ-nin layihə meneceri Daniş Tariq çıxış edərək Nizami Gəncəvinin əsərlərinin əhəmiyyətindən, eləcə də Nizami və pakistanlı şair Əllamə İqbal poeziyası arasında olan oxşarlıqlardan bəhs ediblər. Tədbirdə Nizami Gəncəvinin qəzəlləri səsləndirilib.

# "Xivə prosesi" – Mərkəzi Asiya dünya sivilizasiyalarının kəsişməsində"

## Qətnaməyə Azərbaycan da həmmüəllif olaraq dəstək verib

UNESCO Baş Konfransının Parisdə keçirilən 41-ci sessiyası məruzə və qətnamələrin müzakirələri ilə davam edir. Sessiyada Azərbaycanın həmmüəllifi olduğu "Xivə prosesi" – Mərkəzi Asiya dünya sivilizasiyalarının kəsişməsində" adlı qətnamə UNESCO-nun Sosial və humanitar elmlər komissiyasının iclasında müzakirə edilib.




Sessiyada Azərbaycan nümayəndə heyətində yer alan Milli Məclisin deputatı, akademik Rafael Hüseynov müzakirələrdə iştirak edib. Bildirib ki, Özbəkistanın irəli sürdüyü "Xivə prosesi" layihəsi ilə bağlı qətnaməyə Azərbaycan əsas həmmüəllif olaraq töhfələrini verib.

Akademik qarşılıqlı faydalı əlaqə və münasibətlərin tarixinə diqqət yönəldərək deyib: "XV əsrin dahi özbək mütəfəkkiri və dövlət xadimi Əlişir Nəvai təsdiq edirdi ki, səbir edərək çalışanlar adi yarpaqdan ipək yaratmağa qadirdir. Bu sözlərin həqiqiliyini tarix də dəfələrlə sübut edib. Bir zamanlar mədəniyyətləri və xalqları qovuşduran böyük "İpək Yolu"nu da əməkdaşlığa, anlaşmaya, qarşılıqlı iqtisadi və mənəvi bəhrələnməyə nail olmağa çalışan insanlar doğurmuşdular".

Rafael Hüseynov qəbul edilən sənədin əslində elm və mədəniyyətdən daha miqyaslı bir layihə olduğunu nəzərə çadıraraq bildirib ki, "Xivə prosesi" mahiyyət etibarilə yalnız Orta Asiyanın sivilizasiyalar qovuşuğunda olması ideyası ilə məhdudlaşmır və əslində qat-qat geniş coğrafiyanı əhatə edir.

Bu layihəyə 23 ölkənin, eləcə də Azərbaycanın qoşulması, bu sırada region ölkələri ilə yanaşı Meksikanın, Almaniyanın, İtaliyanın, Macarıstanın, Çinin və bir çox başqalarının yer alması düşündürücüdür. Çünki "Xivə prosesi"nin başlıca fəlsəfəsi yeni zaman içərisində mədəniyyətləri, xalqları daha artıq yaxınlaşdırmağa yeni impuls və mümkün töhfələr vermək, əməkdaşlıq və anlaşmanın sərhədlərini daha da genişləndirməkdir. Ciddi perspektivlər vəd edən bu platforma elm, təhsil, mədəniyyət, intellektual əməkdaşlıqdan daha geniş hədəfləri nəzərdə tutur.

Akademik vurğulayıb ki, Azərbaycan son illərdə dünya miqyasında mədəniyyətlər və dinlər arasında dialoqun başlıca mərkəzlərindən birinə çevrilib, uğurla gerçəkləşən bir çox bu qəbil tədbirlərə ev sahibliyi edib. Eyni zamanda Azərbaycan bu gün dünyanı qovuşduran və qarşılıqlı maraqlara xidmət edən bir sıra mühüm qlobal iqtisadi layihələrdə də aparıcı mövqe tutmaqdadır.

Rafael Hüseynov qəbul edilən qətnamənin UNESCO-nun ali məqsədlərinə, ölkələr və xalqlar arasında yaxınlaşma və əlaqələrin inkişafına xidmət edən mühüm layihə kimi bəhrələr verəcəyinə, nəzərdə tutulmuş niyyətlərin həyata keçirilməsinə yeni sürət gətirəcəyinə inamını ifadə edib.

əvvəli səh. 1-də

# Vətən üçün canından keçən qəhrəmanlarımız son mənzilə yola salınıb

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Natiq Yusif oğlu Əliyev noyabrın 17-də Gəncənin Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları, şəhər sakinləri iştirak ediblər.

Qeyd edək ki, şəhid Natiq Əliyev əslən Göyçə mahalının Zod kəndindəndir. Ailə ötən əsrin 80-ci illərinin sonlarında bədnam ermənilər tərəfindən öz ata-baba yurdundan didərgin salınıb. O, Gəncədə boya-başa çatıb. Natiqin bir övladı Vətənə əmanət qalıb.

***

Şəhid əsgər Elçin Ramil oğlu Əliyevlə Şirvan şəhərində izdihamlı vida mərasimi keçirilib. Qəhrəmanımızı əllərində üçrəngli bayrağımız olan yüzlərlə şirvanlı vətənpərvərlik şüarları ilə qarşılayıblar.

Mərasimdə şəhər rəhbərliyi, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, Şirvan sakinləri və şəhidin hərbçi yoldaşları iştirak ediblər.

Yaşadığı evdə keçirilən vida mərasimindən sonra şəhid Elçin Əliyev Şirvan Şəhidlər xiyabanında dəfn olunub.

***

Şəhid əsgər Elçin Mərifət oğlu Ağayevin üçrəngli bayrağımıza bükülü tabutu noyabrın 17-si axşam saatlarında Cəlilabad rayonuna gətirilib. Qəhrəman döyüşçü ilə vida mərasimində rayon rəhbərliyi, aidiyyəti qurumların əməkdaşları, sakinlər, şəhidin ailəsi və hərbçi yoldaşları iştirak edib.

Elçin Ağayev mərasim iştirakçılarının şəhid adının ucalığı və Vətənin bölünməzliyi haqqında şüarları və dualarla rayon mərkəzi qəbiristanlığında torpağa tapşırılıb.

***

Düşmənin ərazi bütövlüyümüzə qarşı təxribatları zamanı canını fəda edən şəhid əsgər Elmin Samir oğlu Əlizadə ilə Mingəçevir şəhərində yaşadığı evdə vida mərasimi keçirilib. Şəhidin ailə üzvləri, şəhər rəhbərliyi, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak ediblər. Əslən Ağdam rayonunun Papravənd kəndindən olan Elmin Əlizadə Mingəçevir şəhərində dəfn olunub.

***

Şəhid leytenant Ümid Oruc oğlu Niftəliyevin bayrağımıza bükülü tabutu Heydər Əliyev Beynəlxalq Hava Limanından Naxçıvana yola salınıb. Mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, Naxçıvan MR-in Bakı şəhərindəki Daimi Nümayəndəliyinin əməkdaşları və şəhidin yaxınları iştirak ediblər.

Ümid Niftəliyev doğulduğu Babək rayonunun Nehrəm qəsəbəsində torpağa tapşırılıb.

***

Şəhid gizir Orxan Hətəm oğlu Cabbarovla anadan olduğu Quba rayonunda vida mərasimi keçirilib. Orxan Cabbarovun cənazəsi Quba rayonunun Davudoba kəndinə, yaşadığı evə gətirilib. Şəhidlə vida mərasimində hərbçilər, rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak ediblər. Orxan Cabbarov Quba Şəhidlər xiyabanında torpağa əmanət olunub.

***

Daha bir şəhid əsgərimiz Murad Qalib oğlu Xəlilov Şəmkir rayonundandır. Şəhidin cənazəsi Şəmkirin Çinarlı qəsəbəsinə, yaşadığı evə gətirilib. Böyük izdiham yaşanan vida mərasimindən sonra Murad Xəlilov Çinarlı qəsəbə qəbiristanlığında torpağa tapşırılıb.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.







# Üç şəhərimiz "EU4Culture" layihəsində qrant qazanıb

## Mədəniyyət və yaradıcı sektoru dəstəkləmək üçün




Azərbaycandan üç şəhər – Şəki, Xırdalan və Lənkəran Avropa İttifaqının "EU4Culture" layihəsi çərçivəsində qrant qazanıb.

2021-ci ilin may ayında elan olunan "EU4Culture" Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının əhatə etdiyi ölkələrdə paytaxtdan kənardakı şəhər və rayonlara xüsusi diqqət yetirməklə mədəniyyət və yaradıcı sektoru dəstəkləmək üçün maliyyələşdirilən dördillik layihədir. Layihənin ölkə üzrə həyata keçirilməsində tərəfdaş Azərbaycan Respublikası Mədəniyyət Nazirliyidir.

Layihə mədəniyyətin bölgədə genişlənməsi və sosial inkişafına töhfə vermək məqsədi daşıyır. "EU4Culture" layihəsi Höte İnstitutu, Gürcüstanın Fransa İnstitutu, Danimarka Mədəniyyət İnstitutu, Çex Mərkəzləri tərəfindən həyata keçirilir.

Layihə çərçivəsində alınan qrant hesabına şəhərlər üçün mədəniyyət strategiyalarının yazılması nəzərdə tutulur. Gələcəkdə növbəti mərhələdən uğurla keçəcək şəhərlər üçün mədəniyyət strategiyalarının həyata keçirilməsi məqsədilə 300 min avro qrant ayrılması düşünülür.

Müsabiqədə "Şərq Tərəfdaşlığı"nın 5 ölkəsindən 70 şəhər iştirak edib. Təqdim olunan müraciətlər qiymətləndirildikdən sonra ölkə üzrə Şəki, Xırdalan və Lənkəran şəhərləri öz mədəni inkişaf strategiyalarını hazırlamaq üçün 30 min avro qrant qazanıblar. Lənkəran şəhərindən layihəyə Lənkəran Regional Mədəniyyət İdarəsi müraciət edib.

Qrant müsabiqəsinin ikinci mərhələsinin qaliblərini elan etmək məqsədilə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin dəstəyi və Höte İnstitutunun Bakı ofisinin (Goethe-Zentrum Baku) təşkilatçılığı ilə mətbuat konfransı və mükafatlandırma mərasimi təşkil olunub. Tədbirdə layihənin təşkilatçıları və tərəfdaşları çıxış ediblər.

Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri vəzifəsini icra edən Ramil Abbəkirov Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında mədəniyyət sahəsində əməkdaşlıq və birgə layihələrin icrasının gələcək inkişaf prosesləri baxımından önəmini vurğulayıb.

Tədbirdə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas, nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin əməkdaşı Günel Məmmədova, Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, qalib şəhərlərin İcra Hakimiyyəti nümayəndələri və digər yerli qurumların təmsilçiləri iştirak ediblər.

# "Qarabağ xalçalarına yeni baxış"

Vətən müharibəsinin ildönümü və Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsinin 11-ci ildönümü münasibətilə "Azərxalça" ASC "Qarabağ xalçalarına yeni baxış" xalça kolleksiyasını təqdim edib.

Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə tariximizdə yeni səhifə açdığı kimi, "Qarabağ xalçalarına yeni baxış" kolleksiyası da xalçasevərlərin diqqətinə Qarabağ xalçalarının yeni obrazını təqdim edəcək.

Noyabrın 17-də "Azərxalça"nın İçərişəhərdə yerləşən sərgi salonunda təqdimatı keçirilən kolleksiya Əməkdar rəssam Rəşad Ələkbərovun ideyaları əsasında "Azərxalça" ASC-nin yaradıcı qrupunun iştirakı ilə hazırlanıb.

Rəşad Ələkbərov Qarabağ xalçaçılıq məktəbinə aid "Qasımuşağı" xalçasını 4 müxtəlif rəngdə və müasir zövqə, interyerə uyğun dizaynda təqdim edib. Hər bir xalçanın dizaynına 4, toxunma prosesinə isə 2 ay vaxt sərf olunub.

Xatırladaq ki, "Qasımuşağı" xalçaları Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu xalçalardır. "Qasımuşağı" xalçaları Zəngəzur mahalının Hacısamlı nahiyəsinin (indiki Laçın rayonunun) inzibati ərazi vahidində yerləşən Qasımuşağı obasının, eləcə də ətraf kəndlərin adı ilə bağlıdır.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov çıxışı zamanı qeyd edib ki, milli-mənəvi irsimiz olan Qarabağ xalçalarını bütün dünyaya daha müasir tərzdə təqdim etmək, əslində, bu xalçalara olan marağı qat-qat artırır. Artıq 11 ildir UNESCO-nun siyahısında yer alan Azərbaycan xalçaçılıq sənətinin nadir incilərini müasir dizaynda görməyin vaxtıdır.

Rəssam Rəşad Ələkbərov deyib: "Mən klassik "Qasımuşağı" xalçalarında mübarizə, müharibə, qələbə elementləri görürəm. Layihələndirdiyim xalçalarda forma olaraq bu xalçanı əsas götürmüşəm. Rəng çalarlarının dəyişməsi isə əhval-ruhiyyə, baş verən proseslər və gələcək haqqında düşüncələrimin təzahürüdür".

Qeyd edək ki, 4 rəngdə təqdim edilən xalçaların hər biri 4 kvadratmetrdir.



# Milli Dirçəliş Günü münasibətilə

Ağstafa Regional Mədəniyyət İdarəsi (RMİ) Ağstafa rayon Heydər Əliyev Mərkəzində, idarənin tabe müəssisələrində 17 Noyabr – Milli Dirçəliş Günü ilə əlaqədar tədbirlər keçirilib. Tədbirlərdə qeyd olunub ki, 1988-ci il noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına etiraz olaraq Bakıda fasiləsiz mitinqlər başlayıb. Mitinqlər ölkədə xalq hərəkatına təkan verib. 1992-ci ildə 17 noyabr Milli Dirçəliş Günü elan edilib. Əlamətdar gün ilə bağlı Tovuz Dövlət Rəsm Qalereyasında və Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvlərinin əl işlərindən ibarət sərgilər təşkil olunub.



Ağcabədi RMİ Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində keçirilən tədbirdə Qarabağ qaziləri Saleh Cabbarov, Rahil Əhmədzadə və başqaları çıxış ediblər. Polkovnik-leytenant Ramil Məmmədov tərəfindən muzeyə hədiyyə edilən bayrağımız təqdim olunub.

Sabirabad RMİ-nin tabeliyindəki Saatlı rayon Dövlət Rəsm Qalereyasında əlamətdar günə həsr olunmuş tədbir, həmçinin Şirvan Dövlət Rəsm Qalereyası tərəfindən şəhər 16 saylı tam orta məktəbdə səyyar sərgi təşkil edilib.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ərkivan qəsəbə Z.Nəcəfov adına 2 saylı tam orta məktəbdə, Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində, Gəncə RMİ Samux rayon Seyidlər kənd kitabxana filialında, Xaçmaz RMİ Quba rayon MKS-nin Alekseyevka, Talabıqışlaq, Qəçrəş və Alıc kənd kitabxana filiallarında da Milli Dirçəliş Günü ilə əlaqədar tədbirlər keçirilib.

# Mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər



İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzinin İsmayıl bəy Qutqaşınlı adına Xalq teatrının səhnəsində Nargilə Rəhmanın müəllifi olduğu, Nihat Cəlilzadənin səhnələşdirdiyi "Qələbə" adlı tamaşa nümayiş olunub. Tamaşanı İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov və rayon ictimaiyyətinin nümayəndələri izləyiblər.

Sumqayıt RMİ-nin Xızı rayon nümayəndəliyi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının əməkdaşları Vətən müharibəsi şəhidi Vidadi Allahverdiyevin ailəsini ziyarət ediblər.

Gəncə RMİ Gəncə şəhər MKS-nin 13 saylı kitabxana filialı Gəncə Dövlət Regional Humanitar Kolleci tələbələrinin iştirakı ilə Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə "Qüdrətli şair, ustad sənətkar" başlıqlı tədbir keçirib. Xocalı rayon Yaloba kənd tam orta məktəbin şagirdlərinin iştirakı ilə kənd Tarix-Diyarşünaslıq Muzeyində "Milli dəyərlərimizi qoruyaq" mövzusunda sərgi təşkil edilib. Samux rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları rayonun Əhmədbəyli kənd tam orta məktəbində şagirdlərlə "44 günlük savaş – Zəfər tariximiz" mövzusunda görüş keçirib.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Masallı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" (20 oktyabr – 20 noyabr) çərçivəsində "Uşaqların mənəvi inkişafı: nəyi necə etməli" mövzusunda tədbir keçirilib. Masallı şəhər onbirillik İncəsənət məktəbində şagirdlər arasında "Qarabağa qayıdış" devizi altında intellektual yarış təşkil edilib. Qaliblərə regional idarə tərəfindən diplom və pul mükafatları təqdim edilib.



Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində Beynəlxalq Tolerantlıq Günü (16 noyabr) münasibətilə "Tolerantlıq Azərbaycan xalqının ruhundadır" başlıqlı tədbir təşkil edilib. Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası, rayon Mədəniyyət Mərkəzi, Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS də əlamətdar günlə bağlı tədbirlər keçiriblər. Qazax Dövlət Rəsm Qalereyasının dərnək üzvləri Eşqin Quliyev, Ema Carçili və Könül Xasməmmədova Xətai Sənət Mərkəzində keçirilən "Mənim düşüncəm – 2021" adlı respublika uşaq yaradıcılıq müsabiqəsində diploma layiq görülüblər.

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Layihələrin idarə olunması" adlı təlim keçirilib. Təlim zamanı müxtəlif qrant müsabiqələrinin qalibi Rəşad Qurbanov layihələrin strukturu, icra mərhələləri, layihə təkliflərinin daha effektiv hazırlanması haqqında tövsiyələrini gənclərlə bölüşüb.

Ağdaş RMİ Ağdaş rayon Mədəniyyət Mərkəzinin "Kəndirbazlar" folklor kollektivi noyabrın 15-də Qobustan qoruğunda keçirilən "Yurdda bayram" tərəkəmə festivalında iştirak edib. Kollektivin çıxışı festival iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Ağcabədi RMİ Ağdam rayon Heydər Əliyev Mərkəzi və rayon Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Azad Qarabağın qəhrəman şəhid və qaziləri" adlı tədbir keçirilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Regional idarənin dəstəyi ilə nəşr olunan kitabların təqdimatı

Noyabrın 18-də Azərbaycan Yazıçılar Birliyində (AYB) Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) dəstəyi ilə nəşr olunan "Nizami Gəncəvinin poetik portreti" və "Nizami Gəncəvinin əsərlərinin el variantları" kitablarının təqdimatı keçirilib.

AYB-nin mətbuat katibi Xəyal Rza tədbiri açaraq "Nizami ili" münasibətilə işıq üzü görən kitablar haqqında məlumat verib.

AYB sədrinin müavini Rəşad Məcid "Nizami Gəncəvi İli"ndə dahi şairin irsinə həsr olunan kitabların nəşrini yüksək qiymətləndirib.

Hər iki nəşrin layihə rəhbəri və ön sözün müəllifi – Kürdəmir RMİ-nin rəisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Xudanlı çıxış edərək kitabların məqsədi, ərsəyə gəlməsi barədə danışıb.

Yazıçı Seyran Səxavət, yazıçı-dramaturq Elçin Hüseynbəyli, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent Mehman Həsənli, institutun baş elmi işçisi, professor Cavanşir Yusifli, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin əməkdaşı Xəyal Məmmədov və başqa çıxış edənlər kitablar haqqında fikirlərini bölüşüblər.

Sonda çıxış edən "Nizami Gəncəvinin əsərlərinin el variantları" kitabının tərtibçisi və redaktoru, şair Fərid Hüseyn və "Nizami Gəncəvinin poetik portreti" kitabının tərtibçisi və redaktoru, şair, ədəbiyyatşünas Ramil Əhməd nəşrlər haqqında iştirakçılara bilgi veriblər.

# "Dumanlar başımda dastana döndü"

## YARAT-ın Bərdədə sərgisi davam edir

Vətən müharibəsi dövründə Bərdə şəhəri Ermənistan ordusunun dinc əhaliyə qarşı hücumlarının əsas hədəflərindən biri olub. YARAT Müasir İncəsənət Məkanının Bərdədə təşkil etdiyi "Dumanlar başımda dastana döndü" adlı qrup sərgisi davam edir.




Yerli rəssamların və fotoqrafların əsərlərindən ibarət sərgi 44 günlük Vətən müharibəsində xalqımızın qəhrəmanlıq tarixinin və Dağlıq Qarabağ münaqişəsi adı altında otuz ilə yaxın davam etmiş erməni işğalçılığının sənət proyeksiyasıdır.

Ekspozisiyada Ağababa Bağırov, İlqar Cəfərov, Şahvələd Eyvazov, Erkin Ələkbərli, Rəşad Ələkbərov, Xalid Əsgərov, Mirnaib Həsənoğlu, Əli Qafarov, Cavid Qurbanov, Oleq Litvin, Əli Rza, Zamir Süleymanov və Nurəhməd Vəliyevin instalyasiya, fotoqrafiya və rəqəmsal sənət əsərləri yer alıb.

Sərginin adı Vətən müharibəsində şəhid olmuş gizir Xudayar Yusifzadənin özünəməxsus ifasında Əliağa Vahidin sözlərinə yazılmış "Vətən yaxşıdır" (musiqi Əlibaba Məmmədov) mahnısından götürülüb. Bu mahnı həmçinin Rəşad Ələkbərovun sərgidə nümayiş olunan instalyasiyasının tərkib hissəsidir.

Sərgi 2022-ci il fevralın 4-dək ziyarətçilər üçün açıqdır.



# "Şadam ki, bir çox əsərlərin Bakıda ilk dəfə səslənməsinə nail olmuşam"

## Dirijor Fəxrəddin Kərimov: "Gənclərə dayaq olmaqla yanaşı, sənətə məsuliyyətlə yanaşmalarını da tələb etməliyik"

Akademik musiqinin cəmiyyətin bütün təbəqələri tərəfindən dərk edilməsi, qavranılması o qədər də asan deyil. Dünyanın hər yerində "klassik musiqi dinləyiciləri" adlanan təbəqə var ki, onun genişlənməsində məsuliyyət daha çox peşəkar musiqiçilərin üzərinə düşür. Bu sahədə dirijorluq sənəti də mühüm yer tutur.

Azərbaycanda bu gözəl sənətin təməli görkəmli bəstəkar, musiqi xadimi Müslüm Maqomayev (1885–1937) tərəfindən qoyulub, sonradan maestro Niyazi tərəfindən daha da yüksək səviyyəsinə gəlib çatıb. Bu insanların sayəsində hazırda bizim dünyada tanınmış dirijorlarımız fəaliyyətdədir.

Dirijorluq sənətinin layiqli davamçılarından biri də Xalq artisti, Prezident təqaüdçüsü Fəxrəddin Kərimovdur. Bu günlərdə sənətkarla görüşüb həmsöhbət olduq. Müsahibəni təqdim etməzdən öncə dirijorun bioqrafiyasına qısa nəzər salaq.

Fəxrəddin Nuri oğlu Kərimov Bakıda həkim ailəsində dünyaya gəlib. Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirdikdən sonra P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında violin sinfi üzrə təhsilini davam etdirib. Təhsilini başa vurduqdan sonra Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrində Niyazinin rəhbərliyi altında konsertmeyster kimi çalışıb. Hərbi xidmətini başa vurduqdan sonra dirijorluq sənətinə sonsuz sevgi və marağı olduğu üçün 1982-ci ildə N.Rimski-Korsakov adına Leninqrad (Sankt-Peterburq) Dövlət Konservatoriyasının Opera-simfonik dirijorluğu şöbəsində Rusiyanın Xalq artistləri V.Gergiyev və İ.Musinin sinfində təhsil alıb. Təhsilini başa vurduqdan sonra Sankt-Peterburqun Mariinski Dövlət Opera və Balet Teatrında təcrübəçi dirijor kimi çalışıb. Təhsilini tam bitirdikdən sonra Türkiyədə İstanbul Memar Sinan Universiteti nəzdində Dövlət Konservatoriyasında və eyni zamanda İstanbul Böyükşəhər Bələdiyyəsi nəzdində opera və simfonik orkestr yaradaraq həmin kollektivə rəhbərlik edib. Daha sonra Türkiyənin bütün şəhərlərində qastrola çıxaraq opera, balet və simfonik konsertləri idarə edib, İzmir Dövlət Opera və Balet Teatrının baş dirijoru olub. Eyni zamanda Avropanın bir neçə ölkəsində dirijor kimi konsertlərdə iştirak edib. Hazırda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru kimi fəaliyyət göstərir. Eyni zamanda Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Bakı Musiqi Akademiyası və Milli Konservatoriyanın dosentidir.

*– Fəxrəddin müəllim, istərdik öncə 2 noyabr tarixində Heydər Əliyev Sarayında Zəfərimizin ildönümünə həsr edilmiş "Qarabağ Azərbaycandır!" adlı konsertinizlə bağlı təəssüratlarınızı bölüşəsiniz.*

– Biz bu Qələbəni illərlə gözləmişik. Ali Baş Komandana, müzəffər Ordumuza dərin sevgi və minnətdarlığımı bildirirəm. Zəfər Günü ərəfəsində keçirilən konsertdə mən bu hiss və duyğuları bir daha yaşamış oldum. Konsertdə Zəfər notlarına köklənmiş proqram təqdim etdik. Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Bəstəkarlar İttifaqı, Heydər Əliyev Sarayı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə həyata keçirilən bu layihənin ideyası Bəstəkarlar İttifaqında yarandı. İttifaqın rəhbəri, Xalq artisti Firəngiz Əlizadənin bəstəkarlara müraciəti ilə biz əsərləri bir araya gətirə bildik. Çoxsaylı əsərlərin arasından səslənməyən və ictimaiyyətə təqdim olunmağa layiq olan əsərlər seçildi. Bu mənada Firəngiz xanıma təşəkkür edirəm ki, çox diqqətli, xoşniyyətli və peşəkarcasına yanaşdı bu işə. Konsertdə 18 bəstəkarın əsəri səsləndi. Məşqlər zamanı mən müəlliflərin həyəcanını, sevincini hiss edirdim. Zəfərə həsr olunan əsərlərin təqdimi çox əlamətdar bir hadisədir. Biz bu işi ənənəyə çevirərək Qələbə gününü bəstəkarlıq və musiqi sahəsində müxtəlif formalarda qeyd edəcəyik. Bundan sonra da bəstəkarlarımız şanlı Zəfərə musiqinin müxtəlif janrlarında əsərlər həsr edəcəklər. Keçmişə nəzər salanda görürük ki, bu mövzu heç zaman diqqətdən kənarda qalmayıb.

*– Mövzu eyni olsa da, yanaşma fərqliliyini necə hiss edirdiniz?*

– Dünyadakı bütün insanlar bir-birinə bənzəmədiyi kimi, hisslər də fərqli olur. Biri poema formasında, biri mahnı, biri sırf instrumental yazır. Forma olaraq axtarışları da maraqlı idi. Bizim bəstəkarlıq məktəbimiz zəngindir. Fərqliliyi ondadır ki, bəziləri xalq çalğı alətlərindən, muğamdan, aşıq musiqisindən istifadə edərək simfonik orkestrlə birlikdə dinləyicilərə zəngin bir palitra təqdim etdilər. Bu əsərlərdə əsas qeyd etmək istədiyim məqam bəstəkarlar bu nümunələri ustalıqla və səmimi yazmışdılar. Layihənin reallaşmasında Dövlət Xor Kapellasının və onun bədii rəhbəri Gülbacı İmanovanın da rolu böyük oldu. Kapella yeganə bir kollektivdir ki, oratoriya və kantataları, görkəmli Azərbaycan bəstəkarlarının xor əsərlərini məharətlə ifa edir.

*– İndi isə şəxsi yaradıcılığınıza gələk. Ailənizdə sizdən əvvəl musiqi ilə məşğul olan vardımı?*

– Valideynlərim musiqiyə maraq göstərir, musiqini çox sevirdilər. Evimiz Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin yanında idi. Qardaşımla məni həmin musiqi məktəbinə qoydular. Orada mənə dərs deyən müəllimləri ehtiramla və minnətdarlıqla yad edirəm. Bizə qarşı nəcib və nəzakətli idilər. Çox məmnunam ki, məşhur konservatoriyalarda təhsil alsam da, sənət yolumun təməli Bakıda qoyulub.

*– Dirijorluğa meyliniz necə yarandı?*

– Gəncliyimdən orkestləri dinləyərək, opera və baletləri izləyərək, təbii ki, bu kollektivləri idarə edərək musiqinin səslənməsində dirijorun şəxsiyyətinin cazibəsi məndə maraq doğururdu. Musiqiçilərlə bərabər əsərləri səsləndirmək və onları idarə edərək istiqamət vermək - bu, insana çox böyük zövq verir. Əsərin yaxşı səslənməsi və yaşaması dirijor və ifaçılara bağlıdır. Bu istəklə sınaqdan keçərək Leninqrad (Sankt-Peterburq) Dövlət Konservatoriyasının Opera-simfonik dirijorluğu şöbəsinin dirijorluq fakültəsinə qəbul olundum. Görkəmli müəllimlərin sinfində təhsil aldım. V.Gergiyev mənim ilk müəllimim idi. Onun xeyir-duası ilə mən Rusiyanın bir neçə tanınmış kollektivində dirijorluq etmişəm. Bu zamana qədər müəllimimin xeyir-duası ilə həm keçmiş sovet respublikalarının şəhərlərində, həm də Avropanın bir neçə ölkəsində opera və balet, simfonik konsertləri idarə etmişəm.

*– Səhnəyə dirijor kimi ilk çıxışınız harada oldu?*

– Sankt-Peterburq Opera və Balet Teatrında. Burada C.Verdinin "Trubadur" operasını idarə etmişdim. Daha sonra başqa tamaşalarda iştirak etdim. İşimin məsuliyyətini hər zaman hiss edirəm. Çalışmalarımda bəstəkarların düşüncələrinə və hisslərinə, stillərinə diqqətli, yaxın olmağa çalışıram və eyni zamanda bütün yaradıcı təkliflərə böyük həvəslə yanaşıram. Konsert proqramlarında düşüncə və istək olaraq yeni əsərlərə, dünyada tanınmış və ilk dəfə Bakıda səslənən əsərlərə müraciət etmişəm. Bu mənim üçün həm maarifləndirici bir missiya kimidir. Eyni zamanda musiqi kollektivləri ilə çalışmalarımda öz və onların repertuarlarının geniş olmasında marağım var. Çox şərəf duyuram ki, Azərbaycanı Heydər Əliyev Fondu tərəfindən təşkil edilən ən yüksək səviyyəli konsertlərdə təmsil etmişəm. Fransa, Yunanıstan, İsveçrə, Küveyt və s. ölkələrdə, eləcə də respublikamızda təşkil edilən dövlət səviyyəli tədbir və festivallarda iştirak etmişəm.

*– Gənc dirijorlarla bağlı düşüncələriniz maraqlıdır...*

– Bu gün yaxşı təhsil almış gənclərimiz var. Onlara biz hər zaman dəstək olaraq, təcrübə qazanmaqlarına şərait yaradaraq eyni zamanda ixtisaslarında tələbkar və daha diqqətli olmalarını, Üzeyir bəyin qoyduğu o gözəl yolu davam etdirmələrini arzulayırıq. Mədəniyyətimizin sabahı və daha da zənginləşməsi üçün. Bildiyiniz kimi, Azərbaycan musiqisi dünyada tanınır və bu sahədə dünyaya təqdim edəcəyimiz çox nümunələr var. Millətimizi yaşadan mədəniyyətimizdir. Bu amil bizi çox diqqətli olmağa sövq edir. Çox istərdim bizim böyük şəhərlərimizdə, Gəncədə, Sumqayıtda, Naxçıvanda simfonik orkestrlər və musiqili teatrlarımız yaradılsın. Bizim üçün, sənətimizin inkişafı üçün bu, çox vacibdir.

*– Maraqlı söhbətə görə sizə təşəkkür edirəm.*

– Mən də sizə təşəkkür edirəm. Bu gün ölkəmizdə bütün sahələrdə inkişafı görüb fərəhlənirəm. Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət sahəsinə diqqəti bizi qürurlandırır və bütün vətəndaşlarımıza böyük ruh yüksəkliyi verir.

**Lalə AZƏRİ**



# "Yeddi gözəl"in səhnəsi

Dahi Nizami Gəncəvinin 880 illik yubiley tədbirlərinə, "Nizami Gəncəvi İli"nin layihələrinə biri də əlavə olundu. Məlum olduğu kimi, 15–26 noyabr tarixində Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Şəhər İcra Hakimiyyəti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Nizami Gəncəvi Beynəlxalq Festivalı keçirilir.

Zəngin proqramlı festival çərçivəsində növbəti nümayiş noyabrın 16-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında baş tutdu. Dahi şairin "Yeddi gözəl" poeması əsasında böyük bəstəkar Qara Qarayevin yazdığı eyniadlı balet nümayiş olundu.

Zaman-zaman müxtəlif redaksiyalarda təqdim olunan, fabulasında və musiqi dramaturgiyasında əhəmiyyətli dəyişiklik edilmədən hazırda 2 pərdə və 13 şəkildə təqdim edilən balet nümunəsində Əməkdar artistlər Anar Mikayılov (Bəhram şah), Nigar İbrahimova (Gözəllər gözəli), Cəmilə Kərimova (Bizans gözəli), Elmira Süleymanova (Slavyan gözəli), Samir Səmədov (Səməndər), həmçinin balet artistləri Samirə Məmmədova (Hind gözəli), Nigar Əliyeva (Xarəzm gözəli), Yuliya Ferştand (Çin gözəli), Ayan Eyvazova (Məğrib gözəli) iştirak edirdilər.

Məlumat üçün deyək ki, Qara Qarayev yaradıcılığının parlaq nümunələrindən olan "Yeddi gözəl" (1952) baletinin librettosunu "Yeddi gözəl" poemasının motivləri əsasında İsmayıl Hidayətzadə, Yuri Slonimski və Sabit Rəhman yazıb. Səhnə nümunəsinin quruluşçu rejissor və baletmeysteri Pyotr Qusev, məsləhətçi və ayrı-ayrı rəqslərin quruluşçusu Qəmər Almaszadə, rəssamları Ənvər Almaszadə, Fyodr Qusak, dirijoru Kamal Abdullayev olub.



Budəfəki tamaşanın dirijoru Əməkdar artist, beynəlxalq müsabiqələrin laureatı Əyyub Quliyev idi. Hazırkı quruluşun baletmeysteri Estoniyanın Dövlət mükafatı laureatı, professor Vasili Medvedyev, quruluşçu rəssamı Rusiya Rəssamlıq Akademiyasının üzvü, professor Dmitri Çerbadji, geyim üzrə rəssamı isə mərhum sənətkar, Azərbaycanın Xalq rəssamı Tahir Tahirov olub.

Əzəmətli ölkənin gənc və güclü hökmdarı Bəhram şahın ön planda olduğu birinci pərdənin ilk şəklində bütün düşmənlərinə qalib hökmdarın həyatsevərlik və özünə inamını görürük. Artıq o, vaxtını əsas əyləncəsinə – ova həsr edir və günlərin bir günü ovunu təqib edərkən təsadüfən bir mağaraya girir. Mağaranın divarında yeddi əfsanəvi gözəlin təsvirini görən hökmdar heyran qalır. Yeddi gözəl məxluq şəkildən enərək onun ətrafında dövr etməyə, öz cazibələri ilə onun diqqətini cəlb etməyə çalışırlar. Gözəllərin vəd etdiyi sirli səadət sonrakı şəkillərdə hökmdarı fərqli macəralara sövq edir. Bəhram onları gözdən keçirdikcə ən sirli və səadət vəd edənin – ağ geyimli Gözəllər gözəlinin üzərində dayanır. Bu an o, sanki ağ dumana çevrilir və yox olur. Bəhram şah dərhal onu və başqa gözəlləri tapmaq ehtirası ilə alışıb-yanmağa başlayır. Bunun İlahi tərəfindən işarə olduğunu təyin edərək yeddi gözəli tapmağa qərar verir.

Budur, artıq bir neçə il ötüb və biz şəkildən-şəklə 6 gözəlin pərvanə kimi Bəhramın ətrafında dövr etdiyini görürük. Hər biri bir rəng və biçimdə, mənsub olduqları xalqların xüsusiyyətlərində musiqi əsərinin tamamlanmasına ayrıca rəng qatırlar. Lakin Bəhram şah dərk edir ki, yaşıl təbiət, dərin qəlb rahatlığı hələ onun əldə etmək arzusunda olduğu əsl istəyi deyildir. O, ağ geyimli gözəli axtarıb tapmaq üçün altı gözəli tərk edir. Yalnız Gözəllər gözəli onu xoşbəxt edə bilər. Ətrafındakı insanlardan ayrılaraq təklikdə sarayın ağ otağına yollanır. Bu təmizlik və ağlıq içərisində şah tamamilə təkdir, o, gümüşü aynaya diqqətlə baxaraq, onun dərinliyində özünü və gözəli axtarır. Birdən ağ libaslı Şərq gözəli görünür və Bəhramı əsl saflıq və mənəvi rahatlığın sirləri ilə tanış edir.

Beləcə biz artıq sonuncu şəkillərdə ruhən rahatlaşmış Bəhram şahı görürük. O, xoşbəxtdir. Bu zaman biz əvvəl ilə son arasında keçid yaşayırıq və təsvir və xoreoqrafik müşayiətlə yenidən mağaraya "qayıdırıq". Beləcə, tamaşaçı əsərin ideyasının musiqi və hərəkət dilindəki əsas ifadə vasitəsini özü üçün ayırd etməyə başlayır.

Bunu mükəmməl təsvir və xoreoqrafik elementlərin təsir gücü ilə çatdıran solistlər tamaşaçılara estetik zövq bəxş etdilər. Hər keçiddə artistləri alqışlayan, onların sonrakı pərdə və şəkillərdəki nümayişinə hazırlaşan izləyicilər ikinci pərdənin şəkillərində də bu zövqü ala bildilər. Beləcə, Bəhram şahın müşayiətində sirli aləmə, sehr dolu əfsanənin daxilinə vararaq, onun həqiqətində, bir neçə anlıq da olsa, özlərini yeddi gözəlin, xüsusən də sirli Gözəllər gözəlinin varlığına inandırdılar. Sözsüz ki, bu nəticədə təkrarsız musiqi və usta hərəkətin mükəmməl dialoqunun payı danılmazdır.

Tamaşa sürəkli alqışlarla başa çatdı. Tamaşaçı balet artistlərinin mükəmməl ifası ilə bərabər ölməz müəllifləri və onların yaradıcılıqlarının əsrlərin, onilliklərin sınağından çıxıb, öz ecazkarlığını əvvəlki kimi qorumasını alqışlayırdı.

**HƏMİDƏ**

# "Tomiris" serial kimi ekranlara gələcək

Qazaxıstan və Türkiyə kinematoqrafçıları rejissor Akan Satayevin "Tomiris" filmi əsasında birgə tarixi serial çəkmək niyyətindədir.

"Qazaxfilm" kinostudiyası və "Safaifilm" şirkətinin birgə istehsalı olan film bu ilin sentyabrında Türkiyə kinoteatrlarında göstərilib və böyük maraqla qarşılanıb. Ekran əsəri, həmçinin 8-12 noyabr tarixində İstanbulda keçirilən "Dədə Qorqud" Türk Dünyası Film Festivalının açılış mərasimində nümayiş olunub. Festivalda "Qazaxfilm" Türk dünyası kinematoqrafına töhfəsinə görə xüsusi mükafatla təltif edilib.

Qazaxıstanın mədəniyyət və idman naziri Aktotı Raimkulova festival zamanı məşhur prodüser Baran Mayda ilə görüşüb. Görüşdə filmin əsasında serialın yaradılması, həmçinin bir sıra şərikli kino layihələrinin gerçəkləşməsi haqqında məsələlər müzakirə edilib. Bildirilir ki, serial layihəsini TRT gerçəkləşdirəcək.

**GÜLCAHAN**

# "Mərmər soyuğu"nun çəkilişləri başa çatıb

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası, "İctimai TV" və "Arizona Productions" (Fransa) şirkətlərinin birgə istehsalı olan "Mərmər soyuğu" tammetrajlı bədii filminin çəkilişləri başa çatıb.




"Azərbaycanfilm"dən verilən məlumata görə, film uğursuz rəssamla sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Uzunsürən həbs həyatından sonra evə qayıdan ata ən radikal yollarla oğlunun həyatına düzən verməyə çalışır.

Ekran əsərinin ssenari müəllifləri Asif Rüstəmov və holland həmkarı Roelof Jan Minneboo, rejissoru Asif Rüstəmov, quruluşçu operatorları Oktay Namazov və Adil Abbasov, rəssamı Rafiq Nəsirov, geyim rəssamı Şahin Həsənli, qrim rəssamı Elbrus Vahidov, kreativ prodüseri İradə Bağırzadə, baş prodüseri Fariz Əhmədovdur. Baş rolları Elşən Əsgərov, Natəvan Abbaslı və Xalq artisti Qurban İsmayılov oynayırlar.

Filmin 2022-ci ilin ikinci yarısında tamaşaçıya təqdim edilməsi planlaşdırılır.

Qeyd edək ki, bu, rejissor Asif Rüstəmovun ikinci tammetrajlı işidir. Rejissorun "Axınla aşağı" tammetrajlı bədii filminin dünya premyerası 2014-cü ildə "Karlovı Varı" Beynəlxalq Film Festivalının müsabiqə bölümündə baş tutub. Ekran əsəri bir sıra festivallara dəvət alaraq mükafatlara layiq görülüb.

# "Müharibə uşaqları"nın çəkilişləri davam edir

"Azərbaycanfilm" Kinostudiyasında "Müharibə uşaqları" sənədli filminin çəkilişləri davam edir.

Ekran əsəri 2020-ci ilin Vətən müharibəsi dövründə düşmən tərəfdən Gəncə, Bərdə, Tərtər və digər bölgələrimizə atılan raket zərbələri nəticəsində travma almış uşaqların, postmüharibə dövründə psixoloji reabilitasiyası üçün kukla teatrının həmin bölgələrə qastrola çıxmasından bəhs edən ilham və ümidverici bir filmdir.

Xronometrajı 25 dəqiqə olan filmin prodüseri Fariz Əhmədov, ssenari müəllifi və rejissoru Leylaxanım Qənbərlidir.

## “Ana, mən ad günümü qeyd etmişəm...”

Canlarıyla qaytardıqları torpaqlarımızın qayıtmayan Poladürəkli Vətən oğulları, Allah sizə rəhmət eləsin. Vətən uğrunda canından keçən bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bütöv etdikləri Azərbaycanın yarımçıq qalmış ailələrinin uşaqlarına, ailəsinin bütün məsuliyyəti üzərilərinə düşmüş yoldaşlarına isə deyirəm – sizin acınız bizim acımız, yaralarınız isə bizim qəlbimizi göynədən yaralardır. Şükürlər olsun ki, ildönümünü bu günlərdə qeyd etdiyimiz Zəfər Birinci Qarabağ savaşından bu yana bütün şəhidlərimizin ruhunu şad etdi...



Bu Zəfəri bizə yaşadanlardan biri də şanlı Azərbaycan Ordusunun şəhid leytenantı Şəhriyar Ağamalıyevdir.

Şəhriyar Əvəz oğlu Ağamalıyev 28 sentyabr 1989-cu ildə Hacıqabul rayonunda anadan olub. Rayondakı 1 saylı tam orta məktəbi bitirdikdən sonra Bakı İslam Universitetinin Şərqşünaslıq fakültəsinə qəbul olunur. Universiteti bitirsə də, ixtisası üzrə işləmək istəmir. Çünki əmilərinin hərbçi olması uşaqlıqdan onda hərb sahəsində maraq oyatmışdı. Bu arzusunu gerçəkləşdirmək üçün 2017-ci ildə sənədlərini hərbi hissəyə təqdim edir və kurs keçərək leytenant rütbəsi ilə xidmətə başlayır.

Şəhriyargilin ailəsində ilk şəhid əmisi Ağamalıyev Daşqın olub. O, Birinci Qarabağ müharibəsi zamanı 31 yaşında şəhidlik məqamına ucalıb. Daha bir əmisi Coşqun Ağamalıyev hazırda polkovnik rütbəsində hərbi xidmətini davam etdirir. Deməli, Şəhriyarın hərb sahəsini seçməsi onun ailəsindən gələn bağlılıq idi. Onun da taleyi şəhid əmisinin həyat yolunu təkrarlayacaqdı. Şəhriyar da əmisi kimi eyni yaşda, eyni amal uğrunda canından keçəcəkdi...




Şəhriyar Ağamalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərə qatılır. Müharibənin elə ilk günlərində şəhid əmisinin və digər şəhidlərimizin qisasını alaraq 10-dan çox düşmən əsgərini məhv edir. Oktyabrın 30-da Tərtərin Suqovuşan qəsəbəsi uğrunda gedən şiddətli döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir.

Anası Xanım Ağamalıyeva deyir ki, Şəhriyar haqqında gecə-gündüz danışsam da, qurtarmaz: “Çox ağıllı, tərbiyəli uşaq idi. Ata-anasının qayğısına qalırdı. Böyüyə-kiçiyə hörmət edirdi. Sentyabrda 10 günlük məzuniyyətə gəlmişdi. Cəmi 2 gün qaldı evdə. Zəng edib çağırdılar. Özü də sentyabrın 28-i ad günü olacaqdı. Yola salanda dedim ki, Şəhriyar, ad günündə gələcəksən? Dedi ana, heç nə bilmirəm, hələ gedib vəziyyətə baxacam. Ancaq sən heç nə alıb qoyma, hazırlıq görmə. Nə olsa, mən sənə xəbər göndərəcəm. Axrıncı dəfə yola salanda gördüm onu... Ad günündə telefonla əlaqə saxlayıb onu təbrik edəndə dedi ki, ana, mən gəlməyəcəm. Mən ad günümü döyüşdə qeyd etmişəm. 7-8 düşmən əsgəri vurmuşam...”.

Şəhriyarın 31-ci doğum günündə doğmaları onun yolunu gözləyərkən o, əzizlərinə Vətən torpaqlarının azadlıq müjdəsini göndərmişdi. Ondan yadigar qalanlar vətənpərvərliyi, qəhrəmanlığı haqqında yazılanlar, məğrur baxışlı fotoları və ən əsası bir oğlu, bir də üzünü görmədiyi qızıdır.

Şəhriyar Ağamalıyev doğulub boya-başa çatdığı Hacıqabul rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Bu il sentyabrın 28-də, şəhidin doğum günündə xatirəsinə hazırlanan bulaq-abidənin açılışı olub.

**Səbinə ƏLİBALAQIZI**

## Ukraynada yaşayan azərbaycanlı heykəltəraş Seyfəddin Qurbanov vəfat edib

Tanınmış azərbaycanlı heykəltəraş, Ukraynanın Xalq rəssamı Seyfəddin Qurbanov noyabrın 16-da, 59 yaşında vəfat edib.



Seyfəddin Əli oğlu Qurbanov 1962-ci il oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Siyaqut kəndində anadan olub. 1989-cu ildə Xarkov İncəsənət və Sənaye İnstitutunu (Ukrayna) bitirib. 1987-ci ildən sənət sahəsində uğurlu addımlar atıb, Ukrayna və ümumittifaq sərgilərində iştirak edib.

Xarkov Dövlət Dizayn və İncəsənət Akademiyasının Heykəltəraşlıq kafedrasında əmək fəaliyyətinə başlayan S.Qurbanov sonradan həmin kafedranın dosenti olub. 1991-ci ildən Ukrayna Rəssamlar İttifaqı Xarkov filialının üzvü olan sənətkar 2004-cü ildə bu ölkənin “Əməkdar rəssam”ı, 2005-ci ildə isə “Xalq rəssamı” fəxri adlarına layiq görülüb.

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə Seyfəddin Qurbanov “Tərəqqi” medalı ilə təltif olunub.

Sənətkar soydaşımız Kiyev şəhərində Səməd Vurğunun, 2019-cu ildə təntənəli şəkildə açılışı keçirilən İmadəddin Nəsiminin abidəsinin, eləcə də İrpen şəhərində görkəmli oftalmoloq Zərifə Əliyevanın büstünün, Ukraynanın müxtəlif şəhərlərində abidə-kompozisiyaların müəllifidir.

Heykəltəraşın son işlərindən biri 2021-ci ilin oktyabr ayında Xarkovda yenidən qurulan “Mütəfəkkirlər bağı”nda qoyulan Ukrayna, Azərbaycan və Qazaxıstanın tanınmış mütəfəkkirləri – filosof Qriqori Skovoroda, böyük maarifçi, dramaturq Mirzə Fətəli Axundzadə, şair və yazıçı Abay Kunanbayevə həsr olunmuş abidə-kompozisiyadır.

Allah rəhmət eləsin.

## Payız kimi həzin köç...

Söz vaxtına çəkər. Ötən ilin payızı idi, onun da 85 illiyi. Pandemiyanın sərt qadağalı dönəmi, teatr-konsert salonlarının qapıları qıfıllı. Onun yubiley yazısını necə yazacağım ətrafında xeyli götür-qoy edəndən sonra sevincək zəng elədim. Dəstəyin o başındakı həlim, doğma səs də mənim kimi xoşhal idi. Həm yeni yaşını qeyd eləməyin, həm də Ordumuzun ard-arda qazandığı qələbələrin ovqatında səsi gur-gur guruldayırdı.






Xeyli söhbətləşdik. Dünənə boylandı, sevdiyi sənətini, rollarını, teatrlı-tamaşalı günlərini xatırladı, darıxdığı tərəf-müqabillərini yada saldı, yaşamağın gözəlliyindən danışdı.

Sonra məni və yəqin oxucuları da kədərləndirən “Daha çox özüm, o Məcnun üçün darıxıram. Deməli, elə səhnə üçün də darıxıram, tamaşaçılar üçün də darıxıram. Hə, bir də uşaqlarım üçün darıxıram, narahat oluram. Canım ağrıyan kimi tez deyirəm “Yox, Məcnun, belə eləmə. Sən öləcəksən, uşaqların darıxacaq, ağlayacaqlar”. Nə bilim, bəlkə elə ömrümü uzadan budur. Belə düşünən kimi, vallah, elə bil ağrı da qaçır e. Bəs necə? Adamın əsas ruhu sağlam olsun. Yaş ötdükcə adamı fikir bilirsən haralara aparır? Yaxşı olar, hələ sizin ömrünüz qabaqdadır. Yaxşı şeylər görəcəksiz, bizi də yaxşı xatırlayacaqsız” dedi...

Bir il ötdü... Noyabrın 16-da onun ölüm xəbərini aldıq. Kədərləndik, köks ötürdük, ardınca da “Qatarda”kı Fatıdan “Yarımştat”dakı Murtuzadək rollarını, məşhur replikalarını, şuxluğunu itirməyən simasını xatırladıq...

Əməkdar artist Məcnun Hacıbəyov 86 yaşında bu dünyadan köçünü çəkdi. Hələ illər öncə sevimli teatrından qopan, daha çox qoparılan əsl səhnə-sənət adamı ömrünün əsas səhnəsindən – ana təbiətin füsunkar guşəsindən, Qubanın Nüvədi kəndindəki ocağından əbədi evinə yol aldı.

O, klassik aktyor məktəbinin, bütün çalarları ilə romantik sənət cərəyanının ən maraqlı, sevilən simalarından idi. Hər yeni obrazında bir ayrı oyun üslubu, bir-birini döyməyən, çərçivəyə sığmayan gedişləri ilə məşhur idi.

İstər teatr, istərsə də televiziya tamaşalarında daha çox ikinci planda oyun sərgiləsə də, ən az baş rol ifaçısı qədər yadda qalmağı bacaran, səhnənin, ekranın uzaq qütbündə də tamaşaçı ilə ani baxış, mimika, jest ilə qalıcı dialoq qura bilən sənətkarlardan idi. Onu fərqləndirən bir xüsus da məsuliyyəti və teatra sadiqliyi idi. Səhnədə də, həyatda da şəxsi prinsiplərini, xarakterinə xas bütövlüyünü, sədaqətini itirmədi.

Yadımdadır, təxminən 5 il öncə bəzi gopçu saytlar onun ölüm xəbərini çıxarmışdı. Həmin vaxt zəng edən hər kəsə yarızarafat “Yəqin mənim ölən vaxtım daha gəlib çatıb ...” demişdi. Ardınca da “Aktyoru rolları yaşadır, tamaşaçıları yaşadır. Ölüm onsuz da hamımıza növbə ilə çatacaq” demişdi. Bəli, tamamilə haqlı idi: aktyoru ölməz edən ölməzlik bəxş etdiyi rolları və onları sevərək yaddaşına yazan tamaşaçılarıdır.

Əl-ayağını Bakıdan, teatr, sənət mühitindən çəkib təbiət qoynuna, səssizliyə, təkliyə çəkilən aktyor gördüyünüz kimi, qətiyyən unudulmadı. Əksinə, rollarının işığı, qəhrəmanlarının dillərə köçən sözləri ilə xatırlandı. Özü də bundan ən çox özü xoşbəxt oldu, “Cavanlar yanımdan ötəndə televiziya tamaşalarımdan replikalarımı deyəndə mənə ləzzət edir. Həm yada salınmağıma görə, həm də cavanların köhnə tamaşalara da baxmağına görə” deyirdi.

Xüsusən məşhur “Qatarda” tamaşasında ölməz Yaşar Nuri ilə mükəmməl oyunu, ümumiyyətlə, bütün komik və dramatik çalarları ilə unikal teletamaşanın sevilən Fatısı, romantik “Göz həkimi”nin Əmir kişisi yaddaş kitabçamızda öncüllərdəndir. Bu mənada “Gülüş sanatoriyası”nın Gülüşovu, “Kişilər”in Tumacovu, “Mənim günahım”ın Əlimuradı, “Sarıköynəklə Valehin nağılı”nın Ağabəşiri, ”Yarımştat”ın Murtuzu, “Alov”un usta Əlişi, “Analar”ın Rəhmanı fərqli xarakter və üslublu rollar kimi onun tükənməz istedad və energetikasının ən bariz nümunələri hesab oluna bilər. “Yeni evlənənlər” filmindəki Qurban kişi (yeganə baş rolu) onun lirik, dramatik, komik kimi janr bölgülərinə sığmayan aktyor olmasına örnək idi.

Məcnun Hacıbəyov sənətin seçdiyi, səhnənin istədiyi sevdalı, məcnun, aşiq idi. Sənətə gəlişi də bunun isbatıdır. 1935-ci ilin 5 oktyabrında anadan olub, uşaqlıq dövrü II Cahan savaşına düşüb. Orta məktəbi başa vurub Qubadan paytaxta yol alan gənc Bakıda peşə məktəblərindən birində təhsil almağa başlayır. Buradan onu Sumqayıtdakı zavodlardan birinə işləməyə göndərirlər.

Hələ uşaqlıqdan teatr, səhnəyə vurğun olan və səsi, fərqli ifa tərzi ilə ətrafdakıların diqqətini cəlb edən Məcnun Sumqayıta qastrola gələn Quba Dövlət Teatrının (sonradan fəaliyyətini dayandırıb) tamaşasına baxır və qəti qərarını verir. Yenidən doğma rayonuna qayıdır və həmin teatrda işləməyə başlayır. Bir müddət sonra Quba teatrında tamaşa hazırlayan Tofiq Kazımovun diqqətini cəlb edən M.Hacıbəyov görkəmli rejissorun məsləhəti və təkidi ilə indiki Mədəniyyət və İncəsənət Universitetinə yollanır və qabiliyyət imtahanından uğurla keçərək Aktyorluq fakültəsinin tələbəsi adını qazanır.

Ali təhsilini bitirdikdən sonra taleyini Akademik Milli Dram Teatrı ilə bağlayan aktyor burada bir-birindən fərqli rollar oynayır, o dövr üçün ən yaxşı özünüifadə məkanı olan televiziya tamaşalarına dəvət olunur və beləcə, geniş tamaşaçı auditoriyasının da diqqətini cəlb edə bilir...

Zəhmətsevərliyi, işinə-sənətinə məsuliyyəti və teatra bağlılığı ilə seçilən aktyor 1989-cu ildə respublikanın “Əməkdar artist”i fəxri adına layiq görülüb. Hər zaman çalışdığı teatrın səhnəsinə sadiq olub və oradan ayrılandan sonra digər teatrların təkliflərinə “yox” deyərək öz həyat monotamaşasını oynayıb-izləmək üçün özü ilə baş-başa qalmağı seçib. Həm də tamaşaçı sevgisi və alqışının xoş təəssüratında...

**Həmidə NİZAMİQIZI**

## Nizami irsinin ən yüksək zirvəsi – “İskəndərnamə”

Böyük şair və mütəfəkkir Nizami Gəncəviyə dünya şöhrəti qazandıran hikmət xəzinəsi “Xəmsə” “İskəndərnamə” poeması ilə tamamlanır. Bu əsərlə şairin məfkurə və şair təxəyyülü özünün ən yüksək zirvəsinə yüksəlir.

Böyük şair illərin yaradıcılıq təcrübəsindən sonra poemanı heç kimdən sifariş almadan, öz arzusu ilə qələmə alıb. Müəllifin 1203-cü ildə bitirdiyi, əruzun mütəqarebe məqsur (məhzuf) bəhrində yazılan “İskəndərnamə” poeması iki hissədən ibarətdir: “Şərəfnamə” (“Şərəf kitabı”, 6835 beyt) və “İqbalnamə” (“Bəxt kitabı”, 3625 beyt). “İqbalnamə”yə “Xirədnamə” (“Ağıl kitabı”) də deyilir.

“Şərəfnamə” Azərbaycan Atabəylərindən Nüsrətəddin Əbubəkr ibn Məhəmmədə, “İqbalnamə” isə Mosul hakimi Məlik İzzəddinə ithaf edilib. “Şərəfnamə” Abdulla Şaiq, “İqbalnamə” Mikayıl Rzaquluzadə tərəfindən farscadan ana dilimizə tərcümə edilib.

Dahi şair poemanı yazarkən qədim dünyanın böyük sərkərdəsi Makedoniyalı İskəndəri əsəri üçün qəhrəman seçir. Haqqında müxtəlif mənbələrdən material toplayır. Onları öz həyat idealına, istək və arzularına uyğun şəkildə işləyir. Nəticədə möhtəşəm bir sənət əsəri yaradır.

Əsərdə qəhrəmanın mənşəyinə dair müxtəlif rəvayətlərin təsviri verilir. Mütəxəssislər qeyd edir ki, Nizami İskəndərlə bağlı hadisələri araşdırarkən yunandilli mənbələrdən də yararlanıb. Müəllif “İqbalnamə”də hekayələrin əksərini Rum filosofunun dili ilə çatdırır. Bəzi məlumatları verərkən şair “eşitdim” deyə fikrini ifadə edir.

Əsərdə İskəndərin doğulması, tərbiyə illəri, hakimiyyətə keçərək ədalətli bir hakim kimi hərəkət etməsi diqqətə çatdırılır. Əsər boyu qəhrəmanın sərkərdə, alim və peyğəmbərliyini əks etdirən müxtəlif hadisələr verilir. Sərkərdəlik fəaliyyəti ilə bağlı olan hadisələr əsərin birinci hissəsində tamamlanır. Şair qəhrəmanını tarixi bir şəxsiyyət, müharibələr aparmış işğalçı fateh kimi deyil, bədii obraz kimi canlandırıb.

Poemada məhəbbət səhnələrinin təsvirinə də geniş yer verilir. Mərd, iradəli və bacarıqlı Bərdə hökmdarı Nüşabə obrazı diqqəti cəlb edir. Yeni tipli dövlət və onun





başçısından, ədalətli quruluşdan söhbət açılır. Şair eyni zamanda qədim Bərdənin zənginlikləri haqqında bəhs edir...

Poema ideal cəmiyyət quruluşunun təsviri ilə kulminasiya nöqtəsinə çatır. Sonra qəhrəmanın xəstəliyi və ölümü ilə əlaqəli olaraq oxucuya kədərli səhnələr, təbiət səhnələri təqdim edilir. İskəndərin ölümünü göstərən səhnələr və sonrakı final hissədə filosofların, hətta Nizaminin özünün ölümü təsvir olunur.

***

“İskəndərnamə” haqqında ilk məlumata Məhəmməd Ovfinin (XIII əsr) “Lübabül-əlbab” təzkirəsində rast gəlinir. O, bu təzkirəni Nizaminin vəfatından sonra yazıb. Bildirib ki, şair bu əsəri ilə İskəndər hekayəsini oxucuların gözündə ayna kimi işıqlandırıb. Dövlətşah Səmərqəndi isə məşhur “Təzkirətüş-şüəra” əsərində “İskəndərnamə” əsərindən ayrıca danışmasa da, Nizami yaradıcılığından bəhs edib. Ə.Cami “Baharıstan” və “Nəfəhatül-üns” əsərlərində Nizami haqqında məlumat verib. Müəllif “Baharıstan”da göstərib ki, Nizaminin əsərlərində şeirə gətirilən dolğunluq, bədiilik və incəlikləri nəinki ayrı-ayrı sənətkarlar, hətta bütün bəşəriyyət də yarada bilməz. O, “Nəfəhatül-üns”də yazır ki, “İskəndərnamə”dəki hadisələrin əksəriyyəti forma cəhətdən əfsanə kimi nəzərə gəlsə də, həqiqətləri izah etmək və tanıtmaq üçün bir vasitədir.

Lütfəli bəy Azər “Atəşgədə” əsərində Nizami “Xəmsə”sinə daxil olan poemaları yüksək qiymətləndirib. Katib Çələbi “Kəşf-əl-zünün” əsərində “İskəndərnamə”dən danışarkən yanlış olaraq əsərin “İqbalnamə”, “İskəndərnamə” və “Xirədnamə” adlı üç hissəsinin olduğunu qeyd edib.

XIX əsrdən başlayaraq Nizaminin başqa əsərləri ilə yanaşı “İskəndərnamə” poeması da Avropa şərqşünas və tərcüməçilərinin diqqətini çəkib. Məşhur şərqşünas Hammer “İskəndərnamə”dən 100-ə qədər beyti alman dilinə tərcümə edib. Macar şərqşünas V.Baxer Nizaminin həyat və yaradıcılığına aid kitabında (1871) “İskəndərnamə”dən də ətraflı danışıb. C.Darmesteter Şərqdə “İskəndərnamə” rəvayətindən danışarkən Nizaminin əsərinə də istinad edib. Türkoloq G.Yakob əsərdəki “İskəndərin ruslara qarşı hərbi yürüşü” epizodunu alman dilinə tərcümə edib və bu hissəyə şərh yazıb. K.Busse “Dünya ədəbiyyatı tarixi” kitabında “İskəndərnamə”ni Nizaminin dördüncü əsəri olduğunu iddia edib. Alman tarixçisi M.Miller öz əsərində “Xəmsə”yə daxil olan digər əsərlərlə birlikdə qısa şəkildə “İskəndərnamə”dən də bəhs edib. Səid Nəfisi “Həkim Nizami Gəncəvi” adlı məqaləsində və “Nizami Gəncəvinin “Divanı” adlı kitabında poemadan ətraflı söz açıb. L.Şpinnagel “İskəndərin ruslarla döyüşü” epizodunu nəsrlə fransız dilinə çevirib. Y.Bertels “Böyük Azərbaycan şairi Nizami” adlı monoqrafiyasında “İskəndərnamə” poemasının da tədqiqinə yer verib.

A.Bakıxanov “Gülüstani-İrəm” əsərində “İskəndərnamə”dəki Nüşabə ilə bağlı dastan-rəvayətin məzmununu nəql edib. M.Axundov “Şeyx Nizami” adlı kitabında Nizaminin şahlara münasibəti, “İskəndərnamə”nin yazılma tarixi və beytlərinin miqdarını diqqətə çatdırıb. M.Tərbiyət “Daneşməndani-Azərbaycan” kitabında “İskəndərnamə” əsərinə də yer verib.

“İskəndərnamə” poeması yüksək ideya-bədii dəyəri ilə Yaxın Şərq xalqları ədəbiyyatına güclü təsir göstərib. Ə.X.Dəhləvinin “Ayineyi-İskəndər”, Ə.Caminin “Xirədnameyi-İskəndər”, Ə.Nəvainin “Səddi-İskəndər” və başqa əsərlər Nizami poemasının təsiri ilə yazılan ədəbi nümunələrdəndir.

***

Müxtəlif dövrlərdə Təbriz, Şiraz, Herat, İsfahan, Yəzd, Buxara və digər şəhərlərdən olan miniatürçü-rəssamlar “İskəndərnamə”nin əlyazma nüsxələrini bəzəyən əsərlər yaradıblar. Bu təsviri sənət nümunələri arasında “İskəndərin Nüşabə ilə görüşməsi”, “İskəndərin Çin xaqanı ilə görüşməsi”, “İskəndərin zəncilərlə döyüşü”, “İskəndər yeddi filosofun əhatəsində”, “İsgəndərin Xızır peyğəmbərlə görüşməsi” və s. mövzularda əsərlər daha məşhur olub.

Bundan əlavə, 1949-cu ildə Bakıda ucaldılan Nizami Gəncəvi heykəlinin postamentində quraşdırılmış, Xalq rəssamı Qəzənfər Xalıqovun eskizləri əsasında heykəltəraş A.Xryunov tərəfindən hazırlanmış barelyefdə Makedoniyalı İskəndərin Nüşabə ilə görüş səhnəsi təsvir olunub. 1979-cu ildə SSRİ Xalq rəssamı Mikayıl Abdullayevin rəsmləri əsasında Bakı metropoliteninin “Nizami” stansiyasının yeraltı zalında dahi şairin əsərləri əsasında işlənən 18 mozaika pannosundan birində “İskəndərnamə” poemasından “İskəndər və çoban” səhnəsi təsvir edilib.

Şairin Gəncə şəhərindəki məqbərəsi ətrafında yerləşən “Xəmsə” bağı”nda ucaldılan, heykəltəraş Qorxmaz Sücəddinov tərəfindən hazırlanan 22 metr hündürlüyü olan çoxfiqurlu heykəldə də mərkəzi fiqur kimi Nizami Gəncəvi, onun ətrafında isə “Xəmsə”nin qəhrəmanları təsvir edilib. Həmin fiqurlardan biri poemanın qəhrəmanı Makedoniyalı İskəndərə aiddir. Bundan əlavə, şairin doğma yurdundakı “Xəmsə” heykəltəraşlıq kompozisiyasında yer alan əsərlərdən biri hündür postament üzərində ucaldılan “Makedoniyalı İskəndər və Nüşabə” heykəlidir.

**Savalan FƏRƏCOV**

# 12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalı başlayır

## Beynəlxalq müsabiqə proqramına 18 ölkənin filmləri daxil edilib

19-23 noyabr tarixində 12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalı (BBQFF) keçiriləcək. Bu il festivala 72 ölkədən 3217 qısa film, o cümlədən 82 film yerli müsabiqəyə təqdim edilib.

Seçim komissiyasının qərarına əsasən, 18 ölkəni (İspaniya, Böyük Britaniya, İtaliya, Türkiyə, Belçika, İran, Rusiya, Portuqaliya və s.) təmsil edən 30 film festivalın beynəlxalq, 26 film isə yerli müsabiqəsində iştirak hüququ qazanıb.

Beynəlxalq müsabiqədə yarışan filmləri yazıçı-publisist, ssenarist Orxan Fikrətoğlu, Ukrayna Film Akademiyasının həmtəsisçisi, kinoprodüser Yuliya Sinkeviç, Paliç Avropa Film Festivalının proqram direktoru, serbiyalı kinoprodüser Miroslav Moqoroviç, türkiyəli rejissor, ssenarist Erdem Tepegöz qiymətləndirəcək.

Yerli müsabiqənin münsiflər heyətində tərcüməçi, şair Səlim Babullaoğlu, Xalq artisti Mehriban Zəki, kinorejissor Elməddin Alıyev yer alır.

Bu il festival ilk dəfə olaraq "Azərbaycan kinosunda xidmətlərinə görə" "Qızıl nar" mükafatını təqdim edəcək.

Builki yeniliklərdən biri də festivalın əsas mükafatı olan "Qızıl nar" heykəlciyinin gənc heykəltəraşlar tərəfindən yeni dizaynda təqdim olunmasıdır. Bundan başqa, Azərbaycan kinosuna yeni gənc rejissorlar qazandıran festivalın builki qaliblərə xüsusi töhfəsi də var. Yerli müsabiqədə "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı animasiya filmi", "Ən yaxşı sosial çarx" nominasiyaları üzrə qaliblərə pul mükafatı veriləcək. Yerli müsabiqənin ümumi mükafat fondu 5000 manatdır.

Festivalın daha bir sürprizi var:BAFTA (Britaniya Kino və Televiziya Sənətləri Akademiyası) mükafatın üzrə 2020-2021-ci illərdə nominant və qalib olmuş dörd film tamaşaçılara təqdim olunacaq.

"Dili bizim" proqramı Cənubi Azərbaycanda yaşayan azərbaycanlı rejissorların ana dilimizdə çəkdikləri filmlərə işıq tutacaq.

Festivalda yer alan yerli və xarici qısa filmlər 5 gün müddətində saat 12:00-dan Nizami Kino Mərkəzində nümayiş olunacaq.

Qaliblərin mükafatlandırılması mərasimi noyabrın 23-də Nizami Kino Mərkəzində keçiriləcək.

Bakı Beynəlxalq Qısa Filmlər Festivalı hazırda Azərbaycanın uzunömürlü kinoforumudur. "CİNEMA" Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi festival Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir.

Festivalın dəstəkçiləri sırasında Nizami Kino Mərkəzi, "Azərbaycanfilm" Kinostudiyası, Dövlət Film Fondu, Azərbaycan Prodüserlər Gildiyası, "Öz film" şirkəti, British Council yer alır.

Əlaqə üçün:
Bakı Beynəlxalq Qısa Filmlər Festivalının Təşkilat Komitəsi
(+994 55) 221-20-41
www.filmfestival.az; office@filmfestival.az

# Musiqi sərrafının kino bəstələri

Vizual ədəbiyyatın ekran dilini yumşaldan, təsvir vasitələrini emosionallıqla müşayiət edən musiqilərin kinonun həyatımızın ayrılmaz hissəsinə çevrilməsində xidməti əvəzsizdir. Kino bəstəkarlarının yaradıcılığı, filmlərə yazılan musiqilərin böyük bir heyətin (əsasən də simfonik orkestrin) ərsəyə gətirdiyini düşündükdə isə ekran hadisələrini musiqilərdə həssaslıqla cilalayanların əməyi göz önündə canlanır, kollektiv sənət anlayışı daha geniş formada təsdiqini tapır.



"Bəxtiyar" filminin yaradıcı heyəti. Soldan sağa: ssenari müəllifi Nikolay Rojkov, baş rolun ifaçısı Rəşid Behbudov, quruluşçu rejissor Lətif Səfərov və bəstəkar Tofiq Quliyev

Azərbaycan kino sənətinə məzmunlu musiqilərlə baxımlılıq gətirən, ekran hadisələrini rəngarəng, müxtəlif janrlı musiqilərlə zənginləşdirən, obrazların hadisələrə fərdi münasibətini, həyat tərzini, hiss və duyğularını emosionallıqla şərh edən görkəmli bəstəkar, Xalq artisti Tofiq Quliyev (1917-2000) də bu sahədə yaradıcılığı ilə milli kinomuzun şöhrətini artırıb. Unudulmaz bəstəkar haqqında nə yaxşı ki, zamanında bu musiqiləri kinomuza ərməğan edib deyə düşünəndə, 40-dan çox filmə yazdığı musiqilərin çeşidliliyini, filmlərin janr müxtəlifliyini də yada salır, yaradıcılıq intuisiyasına, dərin musiqi duyumuna, yüksək bəstəkarlıq qabiliyyətinə, zəngin dünyagörüşünə heyran olursan.

Çoxşaxəli yaradıcılığa malik olan Tofiq Quliyevin kinodakı fəaliyyətinin tarixi 1940-cı ildən başlayır. Azərbaycan kinosunun öncüllərindən olan rejissor Mikayıl Mikayılovun ekranlaşdırdığı (rejissor Vladimir Yeremeyevlə birgə) "İyirminci bahar" sənədli filminə musiqi yazan (Niyazi ilə birgə) bəstəkar bundan sonra 26 bədii, 27 sənədli filmin musiqi müəllifi olub. Tofiq Quliyevin kino musiqilərində hadisələrə uyğun həyat lövhələri təcəssüm olunur, rəngarəng melodiyalar kino bəstəkarının ciddi iş prinsipini təcəssüm etdirir, kino sahəsində baş verən müvəffəqiyyətə gedən yolun çətinliyini, məsuliyyətini anladır, bu sahəyə dəvət alan digər gənc bəstəkarlara da düzgün sənət istiqaməti verirdi.

Kino musiqiləri hadisələri və obrazların fərdiyyətini, xarakterini təhlil edir, bəstəkarlarla rejissorların yaradıcılıq tandemi əsasən eyni məqsədə yönəlir, fikir və yaradıcılıq bir amala xidmət edir. Ekran hadisələrini müşayiət edən musiqilər təəssüratları dərinləşdirir, emosional təsir yaradır, hadisələr müxtəlif sənət nümunələrinin vəhdətində yüksək sənətkarlıqla əks etdirilir.

Görkəmli bəstəkarın filmlərdəki yaradıcılığının böyük bir hissəsini romantik musiqilər və mahnılar təşkil edir. Tofiq Quliyevin müxtəlif (tarixi, detektiv, sosial) janrlı filmlərə yazdığı bu tip musiqilər onu göstərir ki, ekran hadisələrinin, həmçinin obrazların xarakterini şərh edən romantik üslub dərin həyat məzmunu daşıdığı təqdirdə məntiqli olur, düşüncələrə sirayət edir. Janra uyğunlaşdırılan musiqilər obrazların keyfiyyət əlamətlərini, fikirlərin əsaslılığını, dərinliyini sübut edir. Yalnız belə olan halda vizual ədəbiyyatdakı hadisələri müşayiət edən musiqilər fikirlərin dərinliyini duymağa (yaşamağa) kömək edir, melodiya və mahnılar könül nəğməsinə, dillər əzbərinə çevrilir.

Tofiq Quliyevin "Səbuhi", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Görüş", "Qızmar günəş altında" və digər filmlərə yazdığı musiqilər "ürək ağıldan tez görür" fikrini təsdiqləyir, ekran hadisələrini ürəklə ağlın vəhdətində izləməyimizə imkan yaradır. Melodiyalardan əlavə obrazların daxili mənini təsdiqləyən, hiss və duyğularını ifadə edən mahnılar isə aktyorların potensialını (artistizm qabiliyyətini) daha geniş şəkildə əks etdirməyə yardımçı olur, romantik duyğuları fərdi təqdimatlarda tamamlayır.





Azərbaycan kinoaktyorlarının romantik teatr ənənələrindən yararlandıqları köklü örnəkləri var. Romantik və realist ənənələri layiqincə davam etdirən, yaddaşımızda iz salan sənət bilicilərinin bu mənada qüsursuz danışıq, hərəkət ustalığı ilə yanaşı, daxili və zahiri dinamikanı, həmçinin romantizm boyalarını diqqətdə saxlayan zəngin təfəffüzləri, zərif plastikaları, şövqlü yaradıcılıq üslubuna malik priyomları, potensialları yaradıcılıq nailiyyətlərinə səbəb olur. Bunu zamanında görən, seçimində yanılmayan kinematoqrafçılar kinonu tarixi şəxsiyyət və sənət nümunəsinə çevirir, milyonları riqqətə gətirməyi bacarırlar. Məsələn, tarixi-bioqrafik janrda çəkilən "Nəsimi" filmində hadisələrin gərginliyini, dramatikliyini aktyorlarla yanaşı musiqilər də şərh edir. Bəstəkar yaradıcılığı idealı, mürəkkəb xarakterli obrazların ruh halını musiqi vasitəsilə emosionallıqla çatdırır, əsasən də filmin baş qəhrəmanın romantik (həmçinin müdrik) ruhunun cilalanması, kəşf edilməsi üçün imkan yaradır, musiqi parçalarının köməyi ilə insanlığın yüksəlişi, dəyərləndirilməsi ideyası fövqəladə şəkildə tərənnüm olunur.

Zülmün, qırğın və qovğaların bitməsini diləyən ümid dolu qəlblərə haqq yolunda mübarizlik nəsihət olunur. Beləliklə də, vacib həyat missiyasını musiqilərində təbliğ edən bəstəkar realist yaradıcılıq prinsipi daxilində müdrik kino anlayışını həm yaradır, həm də yüksək səviyyədə təsdiqləyirdi.

Kinoda musiqinin vacibliyini sübut etdiyinə, yaradıcılığ üstünlüklərinə görə bir çox rejissorlar filmlərinin taleyini Tofiq Quliyevə həvalə edir, ekran əsərlərindəki musiqi və mahnılar ayrı-ayrılıqda uğura uğur qatırdı.

Heç də təsadüfi deyil ki, görkəmli kinorejissor Həsən Seyidbəylinin ssenari müəllifi və rejissoru olduğu altı filmin musiqisi məhz Tofiq Quliyevə məxsusdur.

Ekran hadisələrinin dərindən duyan bəstəkar, dram janrlı filmlərlə yanaşı, kinokomediyalara da musiqilər yazıb, məzəli melodiyalar gülüş doğuran hadisələri vəziyyətlər, mahnılar isə komik xüsusiyyətləri xarakterlər komediyası çərçivəsində şərh edib. Gözlənilməz hadisələrlə rastlaşan, gülməli vəziyyətlərə düşən personajların ("Bəxtiyar", "Qayınana", "Dərviş Parisi partladır" və s.) fərdi cəhətlərini musiqilər xarakterizə edir, müxtəlif düşüncələrə, xüsusiyyətlərə malik personajlar musiqinin təsiri vasitəsilə münasibətlərini bildirirlər. "Qayınana" kinokomediyasında filmin başlanğıcında qısa-qısa səslənən qarışıq melodiyalar filmdəki məzəli hadisələri anons etməklə yanaşı, hadisələrin komik şəkildə cərəyan edəcəyini, obrazların bəməzə xarakterli olacağını çatdırır.

Filmlərə yazdığı mahnılara düzgün ifaçı seçməklə də bəstəkar ekran əsərlərinin yaddaşlara hopmasına şərait yaradıb, məsləyi qarşısındakı böyük məsuliyyəti sayəsində bir çox müğənnilərin (kino vasitəsilə) daha da sevilməsinə, məşhurlaşmasına imkan verib. "Məhəbbət çırağı" – Flora Kərimova, Akif İslamzadə, "Sevinsənə, gülsənə" – Yalçın Rzazadə ("Qayınana"), "Kababçının mahnısı" – Mirzə Babayev ("Şir evdən getdi"), "Yox, yox, yox" – Gülağa Məmmədov ("Sən niyə susursan?"), "Coş, dənizim" – vokalistlər ("Möcüzələr adası"), "İstəmə", "Ey qafil, oyan!" – Gülağa Məmmədov, "Söylədi yox" – Zeynəb Xanlarova ("Nəsimi"), "Sevgi nəğməsi" – Şövkət Ələkbərova ("Onu bağışlamaq olarmı?"), "Dərvişin mahnısı" – Mirzə Babayev ("Dərviş Parisi partladır"), "Sevməmək olmaz" – Şövkət Ələkbərova, "Eldarın mahnısı" – Mirzə Babayev ("Qızmar günəş altında") və digər filmlərə yazılan mahnılar fərdi repertuarlara köçən, bu gün sevilərək ifa edilən, diqqətlə dinlənilən mahnılardır.





"Görüş" kinokomediyasında "Arzular" (ifa edir Şövkət Ələkbərova), "Bəxtiyar" kinokomediyasında "Əziz dost", "Üzümün qaşı" (ifa edir Rəşid Behbudov), "Ögey ana" filmində "Lay-lay" (ifa edir Şövkət Ələkbərova), "Möcüzələr adası"nda "Lirik mahnı" (ifa edir Anatollu Qəniyev), "Onu bağışlamaq olarmı?"da "Sevgi nəğməsi", "Telefonçu qız"da "Gəlmədi" (ifa edir Mirzə Babayev) və digər mahnılar hadisələrin dərindən duyulmasına, obrazların psixologiyasının tanıdılmasına şərait yaradır.

Həyata fərqli, humanist baxışını yaradıcılığına yansıdan, ekran hadisələrinə qəlbinin dərinliklərindən süzülüb gələn melodiyalarla həssaslıq gətirən, nəfəs, ruh verən ibrətamiz sənət missiyasına və şəxsi üstünlüklərinə görə qəlblərdə iz salan musiqi sərrafının kino bəstələri filmlərin leytmotivini dolğun təcəssüm etdirdiyinə görə zümzüməmizdə belə filmləri dönə-dönə xatırlamağımıza, düşünüb nəticə çıxarmağımıza rəvac verir. Əsl sənətkar qüdrəti də sənətini yüksəklərdə, yaddaşlarda saxlamaq, qəlblərə yazmaqdır...

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Xatirə təqvimi — 20–23 noyabr

### Azərbaycan

**20 noyabr 1910** – Yazıçı Məmmədəli Hüseyn oğlu Tarıverdiyev (1910-1985) Ordubad rayonunun Dəstə kəndində doğulub. "Kölgəli dağ", "Qəmküsar" pyeslərinin müəllifidir.

**20 noyabr 1930** – Tanınmış aktyor Gündüz Şəmsəddin oğlu Abbasov (1930-1995) anadan olub. "Onun böyük ürəyi", "Bir qalanın sirri", "Bizim küçə", "Dədə Qorqud", "Doğma sahillər" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. Hekayələr yazıb, tərcümələr edib.

**20 noyabr 1930** – Ədəbiyyatşünas, publisist, Əməkdar elm xadimi Qulu Qasım oğlu Xəlilov (1930 – 18.11.1995) anadan olub.

**20 noyabr 1935** – Xalq artisti, məşhur xanəndə, Qədir Çərkəz oğlu Rüstəmov (1935 – 14.12.2011) Ağdam rayonunda anadan olub. Muğam və xalq mahnılarımızın bənzərsiz ifaçısı olub. "Üzeyir ömrü" televiziya filmində Cabbar Qaryağdıoğlu rolunda çəkilib.

**20 noyabr 1956** – Azərbaycan teatr sənətinin görkəmli simalarından biri, Xalq artisti Kazım Ziya (Kazım Cəfər oğlu Kazımzadə; 21.3.1896 – 1956) vəfat edib. "Səbuhi" (1941), "Fətəli xan" (1947) və s. filmlərdə çəkilib.

**20 noyabr 1991** – Erməni silahlı qüvvələri Qarabağ münaqişəsi gedişində Azərbaycana qarşı ən böyük terror aktını həyata keçiriblər. Xocavənd rayonunun Qarakənd kəndinin səmasında içərisində Azərbaycanın dövlət rəsmilərinin olduğu "Mi-8" vertolyotu raketlə vurulub. Vertolyotda olan 22 nəfərin hamısı, o cümlədən dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, Baş nazirin müavini Zülfü Hacıyev, SSRİ Ali Sovetinin deputatları Vaqif Cəfərov, Vəli Məmmədov, Rusiya və Qazaxıstanın müşahidəçilər qrupunun rəhbərləri, jurnalistlər həlak olmuşdu.

**20 noyabr 2020** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (27.10.1937 – 2020) vəfat edib.

**21 noyabr 1926** – Ədəbiyyatşünas, yazıçı-publisist Nadir İsmayıl oğlu Vəlixanov (1926-1995) Şuşada anadan olub. Uşaq və yeniyetmələr üçün hekayə və povestlərin müəllifidir.

**21 noyabr 2020** – Xalq artisti Əjdər Qüdrət oğlu Həmidov (28.9.1953 – 2020) vəfat edib. Sumqayıt teatrında çalışıb, 1990-cı ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**22 noyabr 1922** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922 – 20.2.1984) Gəncədə doğulub. "Min bir gecə" baleti, simfonik muğamlar ("Şur", "Kürd-Ovşarı", "Bayatı-Şiraz"), "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. əsərlərin müəllifidir. Filmlərə musiqi yazıb.

**22 noyabr 1922** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (1922 – 12.12.2007) Bakıda anadan olub. Kitabları: "General", "Ləpədöyəndə", "Buruğlanlar", "Çəmbərəkənd balladası" və s.

**22 noyabr 1933** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (1933 – 12.7.2006) Şəkidə doğulub. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "İstintaq", "Ad günü", "Ölsəm, bağışla", "Təhminə", "Otel otağı" və s. filmlərə quruluş verib.

**22 noyabr 1933** – Yazıçı-jurnalist Firudin Balakişi oğlu Ağayev (1933-1995) Lerik rayonunda doğulub. Əsərləri əsasında "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" və s. filmlər çəkilib.

**22 noyabr 1938** – Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (1938 – 27.8.2003) Salyan rayonunda anadan olub. "Böyük dayaq", "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar qalereyası yaradıb. Akademik Milli Dram Teatrında çalışıb.

**22 noyabr 1940** – Müğənni, skripka ifaçısı, Əməkdar incəsənət xadimi, professor Rauf Zülfüqar oğlu Adıgözəlov (1940 - 29.6.2002) anadan olub.

**22 noyabr 2012** – Xalq artisti, görkəmli aktyor Yaşar Məmmədsadıq oğlu Nuri (3.9.1951 – 2012) vəfat edib. Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Televiziya tamaşalarında, filmlərdə yaddaqalan obrazlar yaradıb.

**23 noyabr 1923** – Yazıçı, şair, jurnalist Əmrah Bala oğlu Əmrahov (1923–1988) Bakının Kürdəxanı kəndində anadan olub. Kitabları: "Ürək vətən üçün döyünəndə", "Ulduzlar gecə parlar", "Dağ bənövşəsi" və s.

**23 noyabr 1927** – Tarixçi, şərqşünas, professor Əhməd Əhməd oğlu İsgəndərov (1927– 2017) Bakının Mərdəkan kəndində doğulub. Moskvada yaşayıb, SSRİ EA-nın Ümumi Tarix İnstitutunda baş elmi işçi, direktor müavini, "Tarix məsələləri" jurnalının baş redaktoru işləyib. Rusiyanın Əməkdar elm xadimi, Rusiya EA-nın müxbir üzvü olub.

**23 noyabr 1936** – Ədəbiyyatşünas, yazıçı-dramaturq, professor Aqşin Əlisəttar oğlu Babayev (1936 – 10.6.2020) Bakıda anadan olub. Türk ədəbiyyatına dair tədqiqatların, "Ayrılıq", "Dünyanın axırı" və s. kitabların, tərcümələrin müəllifidir.

**23 noyabr 1937** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (1937 – 3.11.1997) Gəncə şəhərində anadan olub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**23 noyabr 1948** – Dahi bəstəkar, publisist, pedaqoq, SSRİ Xalq artisti Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (18.9.1885 – 1948) vəfat edib. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın ("Leyli və Məcnun", 1908), ilk operettanın ("Ər və arvad", 1910) müəllifidir. Azərbaycan EA-nın akademiki olub.

**23 noyabr 1999** – Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli teatr və kino aktrisası Leyla Ağalar qızı Bədirbəyli (8.1.1920 – 1999) vəfat edib. "Səbuhi", "Arşın mal alan" (1945), "Dərviş Parisi partladır" və s. filmlərdə çəkilib.

### Dünya

**20 noyabr 1910** – Dünya şöhrətli rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (9.9.1828 – 1910) vəfat edib. Əsərləri: "Ailə xoşbəxtliyi", "Hərb və sülh", "Anna Karenina", "Dirilmə" (romanlar), "Kreyser sonatası", "Kazaklar", "Hacı Murad" (povestlər), "Canlı meyit" (pyes) və s.

**20 noyabr 1927** – Görkəmli rus aktyoru, SSRİ Xalq artisti Mixail Aleksandroviç Ulyanov (1927–2007) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Voroşilov nişançısı" və s.

**21 noyabr 1694** – Fransız şairi, mütəfəkkiri və tarixçisi Fransua-Mari Volter (Fransua-Mari Arue François-Marie Arouet; 1694–1778) anadan olub. Əsərləri: "Edip", "Brut", "Zaira", "Sezar" tragediyaları, "Mikromeqas", "Kandid" fəlsəfi romanları və s.

**21 noyabr 1898** – Belçika sürrealist rəssamı Rene Fransua Gislen Maqritt (René François Ghislain Magritte; 1898–1967) anadan olub.

**22 noyabr 1869** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1947) laureatı Andre Pol Qiyom Jid (André Gide; 1869–1951) anadan olub.

**22 noyabr 1916** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 12.1.1876 – 1916) vəfat edib. "Martin İden", "Dəmir daban", "Dəniz canavarı" və s. romanların müəllifidir.

**23 noyabr 1875** – Rus yazıçısı, sənətşünas, publisist, ictimai-siyasi xadim Anatoli Vasilyeviç Lunaçarski (1875-1933) anadan olub.

**23 noyabr 1933** – Polyak bəstəkarı və dirijoru Kşiştof Penderecki (Krzysztof Penderecki; 1933 – 29.3.2020) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

# Azərbaycanın qonaqpərvərlik imkanları Qətərdə təbliğ olunub

Ölkəmizin qonaqpərvərlik imkanları 16-18 noyabrda Qətərin paytaxtı Dohada keçirilən "Qatar Travel Mart" sərgisində təqdim olunub. Dövlət Turizm Agentliyindən bildirilib ki, Azərbaycana həsr olunan panel sessiya keçirilib.

Sessiyada çıxış edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zengştşmid "Postpandemiya dövründə turizm sənayesinin bərpası" mövzusunda çıxış edərək ölkəmizin turizm potensialı, Qarabağın yeni turizm destinasiyasına çevrilməsi planları, Yaxın Şərq ölkələri üzrə aparılan rəqəmsal təbliğat kampaniyaları haqqında məlumat verib.




O, Qətərin Azərbaycan üçün hədəf turizm bazarlarından biri olduğunu vurğulayaraq bu ölkə ilə vizanın ləğvindən sonra yaranan yeni əməkdaşlıq imkanlarından bəhs edib. 2022-ci ildə Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatına gələcək azarkeşlərdə Azərbaycana da marağı təşviq etmək üçün turistik paketlərin hazırlanmasının mümkünlüyü diqqətə çatdırılıb.

Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov stendimizi ziyarət edib və təbliğat materialları ilə tanış olub.

İlk dəfə keçirilən "Qatar Travel Mart" sərgisi turizm üzrə ixtisaslaşmış beynəlxalq, regional və milli təşkilatları, hava yolları şirkətləri, turoperatorlar, turizm agentlikləri, hotelçilər və onlayn səyahət şirkətlərini bir araya toplayıb. Sərgiyə 30-dan çox ölkədən turizm sənayesinin təmsilçiləri qatılıb.

Qeyd edək ki, Qətər Azərbaycanın pandemiya ilə bağlı səfər məhdudiyyətlərinin götürüldüyü 65 ölkə arasında yer alır. Oktyabr ayında viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında sazişin imzalanması ilə iki ölkə arasında səyahət daha da asanlaşıb.

# "Qarabağ – qış möcüzələri diyarı"

## "Şirin miniatür"lərin instalyasiya sərgisi



"Port Baku Mall" ticarət mərkəzində Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinə həsr edilən "Karabakh – Winter Wonderland" ("Qarabağ – qış möcüzələri diyarı") adlı nəfis instalyasiya sərgisi açılıb.

Layihənin məqsədi Bakı sakinləri və şəhərin qonaqlarını Qarabağ diyarının zəngin mədəniyyəti ilə tanış etmək, eləcə də uşaqlara və böyüklərə Yeni il ərəfəsində xoş əhval-ruhiyyə bəxş etməkdir. Layihənin ideya müəllifi və rəhbəri "NARGIS" jurnalının baş redaktoru Ülviyyə Mahmudovadır.

Azərbaycanın tanınmış memarları və istedadlı qənnadı ustaları Şuşa qala divarlarından Ağdam məscidi və Xudafərin körpüsünədək Qarabağdakı mədəni abidələrin, eləcə də Füzuli Beynəlxalq Hava Limanı kimi yeni tikililərin və Bakı şəhərinin diqqətəlayiq yerlərinin "şirin miniatür"lərini ərsəyə gətiriblər.

QR kodlar, həmçinin sərgi barədə informasiya böyük ekranda yerləşdirilib. Bu kodlar vasitəsilə həmin abidələrin tarixi və mədəni əhəmiyyəti barədə məlumat əldə etmək mümkündür. Bütün məlumatlar üç dildə "NARGIS" jurnalının saytında təqdim olunur.

İnstalyasiyanın hazırlanmasında müxtəlif şirniyyatlardan istifadə olunub. 40-dan çox marsipan fiquru əllə hazırlanıb, 30 zəncəfil evi quraşdırılıb, 100-dən çox zəncəfil ağacı və 5 yeni il ağacı bəzədilib. Evciklərdə işıq yanır, şeytan çarxı fırlanır, şəkərli qar ilə örtülmüş küçələrdə yüzdən çox zəncəfil miniatür adamlar gəzir. Eksponatların rahatlıqla şəklini çəkmək və onları sosial şəbəkələrdə #nargisgingerbreadcity həştəqi ilə paylaşmaq olar.

Sərgi 2022-ci il yanvarın 13-dək davam edəcək.

# "Kiçik bir millət – böyük animasiya"

## Bakıda Latviya animasiya filmləri festivalı

Latviya Respublikasının Azərbaycandakı Səfirliyi və "Park Cinema"nın birgə təşkilatçılığı ilə 15-21 noyabr tarixində "Kiçik bir millət – böyük animasiya" adlı festival keçirilir.

Festivalın "Fairmont Baku" hotelində təşkil olunan açılışından əvvəl Latviyanın tanınmış animasiya filmləri rejissoru Vladimirs Lesçiov (Leschiov) ölkəsində animasiya sənətinin inkişafı barədə məlumat verib. Bildirib ki, Baltikyanı ölkələr arasında Estoniya hər zaman animasiya filmləri üzrə lider olub: "Son zamanlar Latviya bu sahədə bir qədər uğur qazanıb. Ancaq Estoniya bizim üçün bir məktəb sayılır. Çünki onların çəkdiyi animasiyalar dünyanın bütün ölkələrində qəbul olunur".

Rejissor festivalda təqdim olunacaq "Elektrikçinin günü" animasiya filmi haqqında danışaraq qeyd edib ki, film pandemiyadan əvvəl çəkilsə də, bu günlə səsləşir. Hər kəs filmin ideyasını fərqli formada qəbul edir. Ekran əsəri daha çox özünütəcriddən bəhs edir. Filmin böyüklər üçün nəzərdə tutulduğunu deyən rejissor bildirib ki, uşaqlar üçün mövzu tapmaq olduqca çətindir. İndi onları Şaxta baba, qurd və ya dovşanla aldatmaq olmur.

Latviyanın Azərbaycandakı səfirinin müavini xanım Viya Buşa çıxış edərək festival haqqında məlumat verib. Bildirib ki, Latviyanın müstəqilliyinin 103-cü ildönümü münasibətilə səfirlik Bakıda bir neçə tədbir keçirir: "Kiçik bir millət – böyük animasiya" adı altında təqdim olunan festival belə tədbirlərdən biridir. Latviyanın təqdim etdiyi animasiyalar həm uşaqlar, həm də böyüklər üçün nəzərdə tutulub. Festival çərçivəsində ölkənin tanınmış rejissorlarının filmləri nümayiş olunacaq. Festival çərçivəsində V.Lesçiov ustad dərsi də keçəcək,



eyni zamanda müsabiqə elan olunacaq. Müsabiqəyə qatılmaq üçün festivalda nümayiş olunan filmlərə baxmaq gərəkdir. İştirakçılar Latviya ilə bağlı və sevimli animasiya personajı haqqında düşüncələrini yazmalıdır. Qalib gələn şəxs Riqaya iki bilet əldə edəcək".

Açılış günü V.Lesçiovun "Elektrikçinin günü" filmi nümayiş olunub. Hər gün 2 seansla davam edən festivalın proqramına "Yeni ili gözləyirik", "Yağışlı günlər" və "Qanadlar və avarlar" filmləri də daxildir.

# Mədəni müxtəlifliyin dünya iqtisadiyyatına faydası

## Yaradıcı Şəhərlər Şəbəkəsi hansı məqsədi daşıyır?

*əvvəli səh. 1-də*

Xəbər verdiyimiz kimi, 2021-ci il Dünya Şəhərlər Günü (31 oktyabr) münasibətilə siyahıya daxil edilən 49 şəhər arasında Azərbaycanın zəngin mətbəxi və ləziz yeməkləri ilə tanınan Lənkəran şəhəri ("qastronomiya" tematikası üzrə) də yer alıb. Xatırladaq ki, bundan öncə sözügedən siyahıya Şəki (2017, "əl işləri və xalq mədəniyyəti" tematikası) və Bakı (2019, "dizayn" tematikası) şəhərləri də daxil edilib.

Eyni zamanda Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın "musiqi" tematikası üzrə UNESCO şəbəkəsinə daxil edilməsi ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən iş aparılır.

Nazirliyin Aparat rəhbəri – yeni təsis edilən Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının idarə heyətinin sədri Vasif Eyvazzadə mediaya açıqlamasında bildirib ki, UNESCO şəbəkəsində yer almaq şəhərlərə öz ənənəsini və təcrübəsini bölüşmək, beynəlxalq tərəfdaşlıq imkanı verir. Bundan əlavə, yaradıcı şəhər statusu hər bir şəhər üçün brendləşmə və klasterləşmə baxımından önəmli rol oynayır. Eyni zamanda artıq ölkə daxilində şəhərlər mədəni sənaye sahəsində də klasterləşdirilməlidir ki, biz həmin şəhərlərin yaradıcı potensialını dəyərləndirə bilək. Bununla şəhərin inkişafına da töhfə vermiş olarıq.

UNESCO-nun rəsmi səhifəsində "Yaradıcı Şəhərlər Şəbəkəsi" bölməsinə nəzər salarkən qastronomiya bölməsində İtaliyanın Parma, Alba şəhərləri, Ekvadorun Portoviejo şəhəri, Boliviyanın Koçabamba şəhəri, Türkiyənin Qaziantep, Hatay şəhərləri diqqətimizi çəkir. Bu bölgələr qədim dövrlərdən bəri mədəni kimliyinin əsasını təşkil edən uzun qastronomik tarixləri ilə məşhurdur.




Siyahıda "ədəbiyyat" tematikası üzrə Avstraliyanın Melburn şəhərinin olması da maraq doğurur. 3,5 milyon əhalisi olan şəhəri adətən Avstraliyanın mədəniyyət və idman paytaxtı adlandırırlar. Dünya Səhiyyə Təşkilatı Melburn şəhərini yaşamaq və oxumaq üçün ən təhlükəsiz və rahat yer kimi qiymətləndirib. Həmçinin siyahıda Polşanın Krakov şəhəri, Ukraynanın Lvov, Rusiyanın Ulyanovsk, İtaliyanın Milan kimi şəhərlərinin adına rast gəlirik.

Türkiyənin Kütahya, İtaliyanın Fabriano, İranın İsfahan, Rusiyanın Karqopol (Arxangelsk vilayəti) əl işləri və xalq sənəti, İspaniyanın Sevilya, Britaniyanın Liverpul, Qazaxıstanın Almatı, Türkiyənin Kırşehir, Gürcüstanın Batumi şəhərləri musiqi tematikası üzrə şəbəkənin üzvləridir.

Dizayn sahəsi üzrə Bakı ilə bir sırada Berlin, Braziliya, Budapeşt kimi şəhərlər var. Rəqəmsal incəsənət (media-art) üzrə Seneqalın paytaxtı Dakar, Fransanın Lion şəhəri, İsrailin Tel-Əviv, film sənayesi üzrə Hindistanın Mumbay, Bosniya və Herseqovinanın Sarayevo, İtaliyanın Roma və digər şəhərləri qeyd edə bilərik.

**Lalə AZƏRİ**

# İçərişəhərdə "Şərq irsi"

"İçərişəhər" Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Goethe-Zentrum, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi və "Platform ART" təşkilatının birgə əməkdaşlığı ilə "Şərq irsi" adlı müasir incəsənət sərgisi açılıb.

İçərişəhərdəki XVII əsrə aid memarlıq abidəsi – Qasım bəy hamamında açılan sərgidə fotoqrafiya, videoart və instalyasiya janrlarında hazırlanmış əsərlər nümayiş olunur. Kuratoru Alfons Huq (Bakı Goethe-Zentrum) olan layihə Əqdəs Bağırzadə (Azərbaycan), Andreas Lanq (Almaniya), Andre Severo (Braziliya), Sabina Şıxlinskaya (Azərbaycan) kimi rəssamların əl işlərini bir araya gətirib.



"Şərq irsi" müasir incəsənət sərgisi dekabrın 1-dək davam edəcək.

# "Avişai Kohen trio" Bakıda çıxış edəcək

Dekabrın 6-da Bakıda, Heydər Əliyev Mərkəzində "Avişai Kohen trio"nun konserti keçiriləcək. Cazsevərləri bir araya toplayacaq konsertdə Avişai Kohen (kontrabas), Elçin Şirinov (piano), Roni Kaspi (baraban) çıxış edəcəklər.




İsraildə doğulan, ABŞ-da fəaliyyət göstərən Avişai Kohen son 20 ildə dünyanın ən yaxşı bas ifaçısı kimi tanınsa da, onun məhz bəstəkar kimi yaratdığı musiqi əsərləri şöhrət qazanıb, caz pərəstişkarlarını özünə cəlb edib.

"Avişai Kohen trio" Bakı konsertində yeni "Arvoles" albomundan kompozisiyaları təqdim edəcək.

Avişai Kohenlə birlikdə səhnəni paylaşacaq azərbaycanlı pianoçu və bəstəkar Elçin Şirinov son 3 ildir onunla sıx əməkdaşlıq edir və "Avişai Kohen trio"nun yeni albomunun yaranmasında iştirak edib.

Trionun digər iştirakçısı – baraban ifaçısı Roni Kaspi İsraildə dünyaya gəlib, hazırda ABŞ-da yaşayır.

"Avişai Kohen trio"nun konsertinə biletlər Heydər Əliyev Mərkəzinin kassasında, iTicket.az saytı və kassalarında satılır.

Zala giriş COVİD-19 pasportu (peyvənd sertifikatı və ya COVİD-19-a qarşı immunitet sertifikatı) ilə mümkündür.

# ABŞ-da "Qarabağın ritmi"

ABŞ-ın Virciniya ştatında Azərbaycanın Zəfər Günü münasibətilə "Qarabağın ritmi" ("Rhythm of Karabakh") adlı xeyriyyə konserti keçirilib.




"United Charities for Azərbaycan" tərəfindən təşkil olunan konsertdə Birləşmiş Ştatlarda yaşayan azərbaycanlı musiqiçilər – pianoçu Nərgiz Əliyarova, Ruslan Ağababayevin rəhbərlik etdiyi caz-trio, Xan Bəylinin rəhbərlik etdiyi etno-pop-rok qrupu çıxış edib.

Konsert Virciniya ştatının Aleksandriya şəhərində yerləşən Corc Vaşinqton memorial (George Washington Masonic National Memorial) binasının teatr zalında keçirilib. 200-dən artıq biletin satıldığı tədbirə bir sıra xarici ölkə səfirliklərinin nümayəndələri də qatılıb.

Konsertə bilet satışından toplanan vəsait Azərbaycanda şəhid və qazi ailələrinə yardım məqsədilə sərf olunacaq.

# "Dieqo və mən" 34,8 milyon dollara satılıb

Tanınmış meksikalı rəssam Frida Kalonun (1907 – 1954) "Dieqo və mən" adlı avtoportreti "Sotheby's" hərrac evində 34,8 milyon dollara satılıb. Bu, Latın Amerikası rəssamlarının əsərləri üçün rekord məbləğ sayılır.



Frida Kalo 1949-cu ildə çəkdiyi, ölçüsü 30x22,4 sm olan əsərdə öz alnında əri – rəssam Dieqo Riveranı (1886–1957), onun alnında isə üçüncü göz təsvir edib.

Avtoportretlər rəssamın yaradıcılığının mühüm hissəsini təşkil edib. Onu bu janra meyilləndirən isə atası olub. Kalonun atası fotoqraf idi və o tez-tez qızının fotoşəkillərini çəkir, ona kamera qarşısında durmağı öyrədirdi. Frida Kalo "Dieqo və mən" əsərində 20 il birgə yaşadığı həyat yoldaşına sevgisini əks etdirib.

Əsər əvvəlcə rəssamın dostları – Rusiya əsilli amerikalı fotoqraf Florens Arkin və onun əri Sem Vilyams tərəfindən alınıb. Şəklin arxa tərəfində "Fridadan Florens və Semə sevgi ilə" imzası qeyd olunub. Son auksionadək avtoportret şəxsi kolleksiyada idi. Avtoportret Madrid, Frankfurt, Dallas və Mexikoda Kalonun əsərlərinin sərgilərində nümayiş olunub.

**CAVİD**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2366
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.